Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 38 (8061) ŞƏNBƏ, 16 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



Müəllifi İlham Əliyevdir



## 1 ünvanda 320 xidmət

### Sumqayıtda 6 ildir ki, əhaliyə xidmət "ASAN"laşıb

**"Burada göstərilən xidmətdən çox razıyam. Sözün həqiqi mənasında vətəndaşlara əla xidmət göstərilir. Dövlət rüsumlarının miqdarını da konkret bilirik. Kimsə səndən rüşvət istəmir. Hər kəs növbəsini gözləyir və kimsə növbədənkənar iş görə bilməz. Əməkdaşlar da insanlarla çox mehriban davranır. Bir şeyi neçə dəfə soruşsan da, məmnunluqla cavablandırırlar. Buradan heç kim hələ narazı getməyib. Get-gedə də belə mərkəzlərin sayı artır. Bu da hər bir vətəndaşı sevindirir. Ona görə ki, getdikcə hər şey asanlaşır".**



Bu fikirlər nəvəsinə şəxsiyyət vəsiqəsi almaq üçün Sumqayıt regional "ASAN xidmət" mərkəzində növbə gözləyən 68 yaşlı Baxşəli Abadova məxsusdur. Ağsaqqal deyir ki, burada insan özünü çox rahat hiss edir. Onunla söhbətləşən digər şəxslərin də bu fikirləri təsdiqləməsi və çöhrələrindəki məmnunluq ifadələrindən hiss olunur ki, hər kəs buradakı xidmətdən çox razıdır.

2013-cü ildən fəaliyyət göstərən Sumqayıt regional "ASAN xidmət" mərkəzi artıq 6 ildir bir neçə rayonun əhalisinə xidmət göstərir və bu sırada ilklərdən biridir. Biz də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevin müşayiətilə mərkəzə baş çəkib fəaliyyəti ilə yaxından tanış olduq.

### Bakıdan üç ay sonra...

Yaradıldığı gündən fəaliyyətini "vahid məkan" prinsipi əsasında quran Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri artıq 6 ildir ölkə vətəndaşlarının xidmətindədir.

Sumqayıt regional "ASAN xidmət" mərkəzi 2013-cü il mayın 3-də Prezident İlham Əliyevin iştirakı ilə açılıb. Mərasimdə dövlət başçısı bildirmişdi ki, Sumqayıtda Bakı şəhərinə xas olan bütün standartlar tətbiq olunmalıdır: "Artıq "ASAN xidmət" Sumqayıta da gəldi, Bakıdan üç ay sonra... Sumqayıt, doğrudan da, ölkəmizin çox gözəl şəhərinə çevrilir və Bakıdan sonra Cənubi Qafqazda ikinci böyük sənaye şəhəridir. Sumqayıtın əhalisi də artır, iş yerləri açılır. İndi yeni yaradılan sənaye müəssisələri, texnoparklar kənar bölgələrdən də işçi qüvvəsini Sumqayıta gətirəcək. Yəni burada iş çox olacaq və bu mərkəz nəinki Sumqayıt sakinlərinə, eyni zamanda, Abşeron, Siyəzən, Şabran və Xızı rayonlarının sakinlərinə xidmət göstərəcək".

### Vətəndaşlar "ASAN xidmət"ə çox güvənirlər

Mərkəzə daxil olarkən ilk şahid olduğumuz mənzərə insan izdihamı idi. Hər kəs Məlumat Mərkəzinə yaxınlaşıb müraciət edir və xidmətin əməkdaşları işin çoxluğuna baxmayaraq, vətəndaşları xoş təbəssümlə qarşılayıb lazımi kömək göstərirlər.

Məlumat Mərkəzinin əməkdaşlarından biri də Gülşən Hüseynovadır. Gülşən deyir ki, hərdən vətəndaşla əməkdaş arasında anlaşılmazlıq da yarana bilir: "Əsasən, burada göstərilməyən xidmətlərlə bağlı belə hallar olur. Vətəndaşlar "ASAN xidmət"ə çox güvənirlər. Ona bizdə istədiyi məsələ ilə bağlı xidmət göstərilmədiyini izah edəndə incik düşür. Düşünür ki, "ASAN" hər bir dərdə dəvadır və bütün xidmətlər burada olmalıdır".

Ardı 4-cü səh.

**Tarix sübut edib ki, hər bir xalqın, dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu olub. Dövlət idarəçiliyində yüksək səriştə, milli maraqların hər şeydən üstün tutulması və qətiyyətlilik liderlərin fəaliyyətinin ana xəttini təşkil edir.**

Məhz buna görə də tarixi şəxsiyyətlər əsrlərin və nəsillərin yaddaşında əbədi yaşayırlar. Zaman ötdükcə onların xalqı və vətəni üçün etdiklərinin, ölkəsinin inkişafındakı xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır.

Bu bir həqiqətdir ki, Azərbaycanın 2003-cü ildən başlayan hərtərəfli sürətli inkişafı, uğurları və davamlı yüksəlişi Prezident İlham Əliyevin adı ilə bağlıdır. Məhz İlham Əliyevin uzaqgörən, qətiyyətli və prinsipial siyasəti nəticəsində son 15 ildə dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklər baş verib. Bu qısa zaman kəsiyində Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevrilib.



# LİDER ÖRNƏYİ

## Xalqın İLHAM ƏLİYEV sevgisi sarsılmaz birliyin təcəssümüdür

### Daim xalqın yanında

Dövlətlərin demokratiklik əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqdan mandat almış hakimiyyət fəaliyyəti ilə daim ictimai etimadı doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməyə çalışır.

Fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulan Prezident İlham Əliyev hər zaman qazanılan nailiyyətlərdən bəhs edərkən böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Elə bütün bunların səbəbidir ki, bu gün Azərbaycanda Prezident xalqına güvənir, xalq isə öz liderinə inanır. Hər bir addımını xalqın mənafeyinə uyğun atması cənab İlham Əliyevə ümumxalq sevgisi qazandırıb.

Daim xalqın yanında olmaq, onun çətinliklərini öyrənmək və problemlərin operativ həlli istiqamətində tədbirlər görmək Prezidentin iş tərzidir. İş qrafiki nə qədər zəngin və ağır olsa da, dövlət başçısı hər zaman xalqın marağını üstün tutaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyib. Azərbaycan xalqı da həmişə öz liderinə güvənib, ona ən güclü dayaq olub.

### Özünəməxsus təmkin və həssaslıq

Təkcə son 20 gün ərzində ölkənin ictimai-siyasi və sosial həyatında baş verən hadisələrə nəzər yetirsək görərik ki, vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən və dərhal həlli üçün qəti tapşırıqlar verən İlham Əliyevin atdığı addımlar xalqın Prezidentinə olan etimadını daha da artırıb.

Şəhid ailələrinə 11 min manat birdəfəlik ödəmələrin verilməsi prosesində yaranan problemin həlli ilə bağlı bu kateqoriyaya aid vətəndaşlarla görüşü və dövlət başçısının ahıl şəhid valideynlərinə göstərdiyi ehtiram, qayğı, şəhid ailələrinə verilən müavinətlərin 242 manatdan 300 manatadək artırılması və minimum əməkhaqqının 130 manatdan 180 manata yüksəldilməsi ilə bağlı imzaladığı sərəncamlar hər bir ölkə vətəndaşı tərəfindən yüksək dəyərləndirildi.

Fevralın 12-də "Real" televiziyasına müsahibəsində Prezident bu istiqamətdə atılan addımları dəyərləndirərkən dedi ki, Azərbaycanda şəhid ailələri, Qarabağ müharibəsi əlillərinə analoqu olmayan bir yanaşma mövcuddur: "Köçkünlər üçün 100-dən çox şəhərcik tikilmişdir... Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Mən eşitməmişəm hansı ölkədə bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərilir. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım verilmişdir. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Yəni bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır".

Bununla yanaşı, Prezidentin şimal bölgəsində baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində verdiyi tapşırıqların icrası ilə maraqlanmaq üçün Şamaxıya səfər edib evləri qəzalı vəziyyətə düşmüş sakinlərlə görüşü, onlara təskinlik verməsi, 92 yaşlı Saray nənə ilə uzun müddət xatirələrdən silinməyəcək maraqlı dialoqu xalqda bir daha əminlik yaratdı ki, dövlət və onun lideri hər zaman vətəndaşının arxasındadır.

### Vətəndaşlarla səmimi görüşlərin xoş mənzərəsi

Saysız-hesabsız görüşləri, insanları səbirlə dinləməsi, onların hər bir məsləhətlərini, arzu və təkliflərini nəzərə alması Prezidentin həqiqətən hər bir azərbaycanlının sevimli rəhbəri olmasından xəbər verir.

Fevralın 13-də dövlət başçısının Beyləqana səfəri çərçivəsində yaşananlar da bunu bir daha təsdiqləyir. Öncə ölkə üzrə sayca 45-ci olimpiya idman kompleksinin açılışında idmançılarla görüşən Prezidentin bu sahəyə xüsusi diqqət göstərdiyi bir daha təsdiqləndi. Bu mərkəzin yaradılması dövlətin idman siyasətinin təzahürü kimi qiymətləndirilməlidir. Elə Prezident də bildirdi ki, bu gün Azərbaycan idman dövlətidir. Dövlət bütün bölgələrdə, hər bir rayonda müasir idman komplekslərinin tikilməsi üçün çalışır.

Tarix-diyarşünaslıq muzeyinin açılışında iştirak etdikdən sonra dövlət başçısının muzeyin yerləşdiyi parkda istirahət edən rayon sakinləri ilə görüşü hər kəsdə xoş təəssürat yaratdı. Prezident vətəndaşların problemləri ilə maraqlanıb onların həlli ilə bağlı tapşırıqların veriləcəyini, evi uçub-dağıldığını deyən qadına yeni tikiləcək binada mənzil veriləcəyini, əməliyyata ehtiyacı olan bir gəncə kömək göstərəcəyini söyləyərək xalqla birgə "Azərbaycanım" mahnısını ifa etdi.

Bu, insanlarla hər zaman yaxın təmasda, görüşlərdə olsun, qocalara, uşaqlara, kimsəsizlərə yardım edən İlham Əliyevin səmimiliyi, milli təəssübkeşliyi, xalqına sədaqətinin bariz təcəssümü idi.

### "Sizə xidmət etməyə gəlmişəm"

Sakinlərin səmimi fikirləri, arzuları, liderə sevgiləri isə bir daha təsdiq etdi ki, İlham Əliyev bu müddət ərzində xalqın sevimli liderinə çevrilib.

Yaşlı bir qadının söylədiyi səmimi fikirlərə nəzər yetirək:

- Azərbaycanın fəxrisiniz. Səni bizə bəxş edən o kişiyə Allah rəhmət eləsin. Azərbaycanın gözəl oğlu, siyasətdə ən öndə duran balamız. Çox sağ ol. Sənin gəlişinə bütün nənələr qurban. Hər bir qüvvətli kişinin arxasında bir cəngavər qadın durur. Allah səni də, sənin arxanda dayanan Mehriban xanımı da qorusun. Hər ikinizə uğurlar arzulayıram... Nənələr, analar gecə-gündüz dua edirlər ki, qara qüvvələr Sizdən uzaq olsun.

Vətəndaşlar da təsdiq etdilər ki, dövlət başçısının xalqla bir yerdə olması, millətə arxalanması, arzu və təkliflərinə, istəklərinə vaxtında cavab verməsi, verdiyi bütün vədlərə əməl etməsi xalqın Prezidentinə inamını, etimadını daha da artırır.

Prezidentin "Mən verdiyim sözlərə həmişə əməl etmişəm. Həmişə bu dəstəyə arxalanmışam, mənə güc verən Sizin mənə olan inamınızdır.. Sizə xidmət etməyə gəlmişəm" fikirləri isə bir daha hər bir vətəndaşı qürurlandırdı.

Ardı 3-cü səh.

## Ölkəmizin sabahına Prezident qayğısı

**Azərbaycan Respublikasında tələbə gənclərin təhsil almasının stimullaşdırılması istiqamətində ardıcıl dövlət siyasəti həyata keçirilməkdə davam edir.**

Ölkəmizin Prezidenti İlham Əliyevin sərəncamları ilə tələbələrin təqaüdlərinin artırılması və yüksək bal toplamış tələbələrin dövlət sifarişi ilə təhsil almalarının təmin edilməsi həyata keçirilən siyasətin konkret təzahürləridir.

2019-cu ilin dövlət büdcəsində dövlət sifarişli yerlərin artırılması üçün əlavə vəsait qoyulmasının nəzərdə tutulması da həmin istiqamətin daha da inkişaf etdirilməsini təmin edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında"kı 14 fevral 2019-cu il tarixli sərəncamı müstəqil dövlətimizin Azərbaycanın sabahı olan tələbə gəncliyə göstərdiyi böyük qayğının daha bir əməli ifadəsidir.

Prezident sərəncamı ilk növbədə ali və orta ixtisas təhsili müəssisələrində, Milli Elmlər Akademiyasında təhsilin bütün pillələri və səviyyələrini, habelə peşə təhsili üzrə təhsil alan tələbələri əhatə edir.

Ardı 3-cü səh.





## Xalqın etimadını qazanmaq nümunəsi

### Mehriban Əliyevanın Gəncə səfəri xoş təəssüratlarla yadda qaldı

**Birinci vitse-prezident Mehriban Əliyevanın bu günlərdə Gəncəyə səfəri məlum həqiqətlərə bir daha aydınlıq gətirdi. Belə ki, bütün məziyyətləri ilə yanaşı, bu səfər həm də respublikamızdakı sarsılmaz xalq-iqtidar birliyinin növbəti təsdiqi kimi yadda qaldı.**

Mehriban Əliyeva ilə Gəncənin məşhur görməli yerlərindən olan "Xan bağı" mədəniyyət və istirahət parkında görüşən sakinlər arasında ictimaiyyətin bütün zümrələrini görmək olardı. Aralarında yaşlılar da vardı, gənclər də. Kimisi mənzilinə görə təşəkkür etdi, kimisi təhsilə və elmə göstərilən diqqətə görə, kimisi də şəhərdə aparılan abadlıq və quruculuq işlərinə görə. Həmin gün Mehriban Əliyeva əslində Gəncənin bir çox ünvanlarında olsa da, özünün dediyi kimi, gəlişinin əsas məqsədi gəncəlilərlə görüşmək idi. Və rəsmiyyətdən uzaq qarşılıqlı səmimi dialoq şəraitində keçən görüş, sakinlərin ürəkdolusu minnətdarlıqları hər şeydən öncə gəncəlilərin Prezident İlham Əliyevin ətrafında sıx birləşmələrinin, Heydər Əliyev ideyalarına sədaqətlərinin növbəti dəfə təcəssümü oldu.

Prezident İlham Əliyev hər zaman Gəncənin inkişafına, abadlığına, tarixinin təbliğinə xüsusi diqqətlə yanaşıb. Təsadüfi deyil ki, Azərbaycanın davamlı və sürətli tərəqqisinin canlı nümunəsi olan Gəncə hazırda Qafqazın ən gözəl şəhərlərindən birinə, ölkənin əsas iqtisadi və mədəni mərkəzinə çevrilib. Qədim abidələrin müasir şöhrəti, yeni yolları, dünyanın ən yüksək standartlarına cavab verən beynəlxalq hava limanı, ən sivil tələblərə uyğun səhiyyə ocaqları onun inkişafının göstəricisidir. Bütün bunların hamısı Prezidentin Gəncəyə və onun sakinlərinə olan yüksək qayğısının nümunələridir. Bu gün də Gəncədə yeni infrastrukur layihələri həyata keçirilir, abadlıq işləri aparılır. Ötən ilin sonlarında isə Gəncənin uğurlarının sırasına biri də əlavə olundu.

Ardı 5-ci səh.

## Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorasiya işləri ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə respublikada pambıqçılığın, taxılçılığın, digər kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalının genişləndirilməsi məqsədilə müasir tələblərə cavab verən su anbarlarının, nasos stansiyalarının, suvarma kanallarının və digər su təsərrüfatı obyektlərinin tikilməsi on minlərlə hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsinə, aqrar sektorun inkişafına, ən mütərəqqi standartlar səviyyəsində aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin fəaliyyətə başlamasına zəmin yaratmışdır. Aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına tam ödənilməsinə, ölkənin ərzaq təminatında xarici bazardan asılılığın azaldılmasına, ixracyönümlü məhsulların istehsal həcminin artırılmasına və bununla da regionların davamlı inkişafına nail olunmuşdur.

Görülən işlərin davamı olaraq, Sabirabad və Salyan rayonlarındakı qış otlaqlarında meliorativ tədbirlər layihəsi çərçivəsində son iki il ərzində az məhsuldar qış otlaqlarında aparılmış meliorasiya işləri nəticəsində 15950 hektar, o cümlədən Sabirabad rayonunda 14319 hektar və Biləsuvar rayonunda 1631 hektar əraziyə suvarma suyu çatdırılmışdır.

Bu istiqamətdə tədbirlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.27-ci yarımbəndində göstərilmiş məbləğin 30,0 (otuz) milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 15 fevral 2019-cu il*

## Litva Respublikasının Prezidenti zati-aliləri xanım Dalya Qribauskayteyə

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Litva arasındakı mövcud dostluq və tərəfdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Litva xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2019-cu il*

## Tovuz rayonunun Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əlli min nəfər əhalinin yaşadığı 16 yaşayış məntəqəsini birləşdirən Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,3 milyon (üç milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında" 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli, "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 2005-ci il 1 iyun tarixli 834 nömrəli, "Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin həlli haqqında" 2006-cı il 22 noyabr tarixli 1788 nömrəli sərəncamlarında dəyişiklik edilməsi, "Füzuli adına Beynəlxalq Mükafatın təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 13 sentyabr tarixli 403 nömrəli, "Füzuli adına Beynəlxalq Mükafat haqqında Əsasnamənin təsdiq edilməsi və Füzuli adına Beynəlxalq Mükafat Komissiyasının tərkibi barədə" 1997-ci il 17 sentyabr tarixli 665 nömrəli və "Azərbaycanda aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin inkişaf etdirilməsi ilə bağlı Xüsusi Komissiyanın yaradılması barədə" 2011-ci il 3 may tarixli 1487 nömrəli sərəncamlarının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 712; 2005, № 4, maddə 300, № 6, maddə 494; 2007, № 10, maddə 1009; 2009, № 7, maddə 589; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə yaradılmış İşçi Qrupunun tərkibi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının xarici işlər naziri
Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti
Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti.".

2. "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 493, № 10, maddə 968; 2006, № 7, maddə 588, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2009, № 4, maddə 233; 2010, № 2, maddə 80, № 7, maddə 620; 2012, № 12, maddə 1291; 2013, № 3, maddə 292; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2015, № 8, maddə 957; 2016, № 5, maddə 861, № 9, maddə 1518; 2017, № 11, maddə 2124; 2018, № 8, maddələr 1677, 1715) 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**
Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Komissiyanın üzvləri**
Avropa İttifaqı - Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası vergilər nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası Baş prokurorunun müavini
Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatının rəhbəri
Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Baş idarə rəisi
Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri.".

3. "Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin həlli haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 noyabr tarixli 1788 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 977; 2009, № 2, maddə 74, № 6, maddə 424; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikasının xarici işlər naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri
Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri
Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri.".

4. "Füzuli adına Beynəlxalq Mükafatın təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 13 sentyabr tarixli 403 nömrəli Sərəncamı ləğv edilsin.

5. "Füzuli adına Beynəlxalq Mükafat haqqında Əsasnamənin təsdiq edilməsi və Füzuli adına Beynəlxalq Mükafat Komissiyasının tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 sentyabr tarixli 665 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 254) ləğv edilsin.

6. "Azərbaycanda aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin inkişaf etdirilməsi ilə bağlı Xüsusi Komissiyanın yaradılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 may tarixli 1487 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 392; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 2006-cı il 16 fevral tarixli 1320 nömrəli, "Magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə komissiya yaradılması haqqında" 2012-ci il 27 iyun tarixli 2307 nömrəli, "Azərbaycan Respublikasında müasir Neft-Qaz Emalı və Neft-Kimya Kompleksinin yaradılması ilə bağlı Komissiyanın təşkili haqqında" 2013-cü il 2 aprel tarixli 2828 nömrəli, "Bakı şəhərində yağış kanalizasiya sisteminin təkmilləşdirilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında" 2016-cı il 11 noyabr tarixli 2432 nömrəli və "Su anbarlarının istismar vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında" 2016-cı il 14 noyabr tarixli 2434 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 fevral tarixli 1320 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 159, № 7, maddə 588, № 9, maddə 790; 2009, № 2, maddə 74; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Dövlət Komissiyasının sədri**
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Dövlət Komissiyasının üzvləri**
Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri
Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin direktoru.".

2. "Magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə komissiya yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 27 iyun tarixli 2307 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 618) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri**
Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri
Azərbaycan Respublikasının ədliyyə naziri
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri.".

3. "Azərbaycan Respublikasında müasir Neft-Qaz Emalı və Neft-Kimya Kompleksinin yaradılması ilə bağlı Komissiyanın təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 2 aprel tarixli 2828 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 383; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 1-ci hissəsi ilə təşkil edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri**
Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikasının energetika naziri
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı.".

4. "Bakı şəhərində yağış kanalizasiya sisteminin təkmilləşdirilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 noyabr tarixli 2432 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1871; 2018, № 3, maddə 475) 1-ci hissəsi ilə yaradılmış işçi qrupunun tərkibi aşağıdakı redaksiyada verilsin:

**"İşçi qrupunun rəhbəri**
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**İşçi qrupunun üzvləri**
Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri
Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri
"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri
Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri.".

5. "Su anbarlarının istismar vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 noyabr tarixli 2434 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1873) 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

**Komissiyanın üzvləri**
Azərbaycan Respublikası Baş nazirinin müavini
Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri
Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2019-cu il*

# Əli HƏSƏNOV: "Məişət zəminində yaşanan hər hansı insident Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz"

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov fevralın 15-də Moskvadakı "Neolit" kafesində azərbaycanlılar və çeçenlər arasında baş vermiş insidentlə bağlı AZƏRTAC-a açıqlama verib.

Əli Həsənov bildirib ki, Azərbaycan hökuməti insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirir və hesab edir ki, belə hallar Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz. Prezidentin köməkçisi deyib: "Azərbaycan və çeçen xalqları arasında əlaqələr tarixin sınağından çıxmışdır və nümunəvi xarakter daşıyır. Prezident İlham Əliyevlə Çeçenistan Prezidenti Ramzan Kadırov arasında mövcud olan şəxsi dostluq münasibətləri, ötən ilin sonlarında keçirdikləri görüşdə səslənən fikirlər buna əyani sübutdur. Ümumiyyətlə, azərbaycanlılar bütün Qafqaz xalqları ilə əsrlər ərzində formalaşmış ortaq tarixini,



dəyərlərini yüksək qiymətləndirir və həmişə qorumağa çalışır".

Azərbaycan ilə Rusiya arasında gündən-günə inkişaf edən əməkdaşlıq əlaqələrinin həm də ölkəmizin Şimali Qafqaz respublikaları, o cümlədən Çeçenistanla əməkdaşlığının möhkəmlənməsində önəmli rol oynadığını vurğulayan Əli Həsənov deyib: "Rusiya çoxmillətli dövlətdir, burada yaşayan xalqlar öz dillərini, mədəniyyətlərini qoruyub inkişaf etdirirlər. Rusiyada yaşayan azərbaycanlılar da digər xalqlar kimi həmişə öz milli mədəni hüquqlarından tam istifadə edə bilirlər. Biz soydaşlarımızı, qardaş çeçen və Rusiyada yaşayan digər xalqların nümayəndələrini bu ölkədəki multikultural mühitdən, yaradılmış şəraitdən xoş məramlar, xalqlararası dostluğun inkişafına töhfə verəcək məqsədlər üçün istifadə etməyə, belə xoşagəlməz insidentlərə yol verməməyə dəvət edirik. Əminliklə bildiririk ki, Moskvada yaşanmış insidentdən sui-istifadə edərək xalqlarımız arasında düşmənçilik toxumu səpmək istəyən qüvvələr böyük yanlışlığa yol verirlər və öz çirkin niyyətlərinə çatmayacaqlar".

# Bir sıra qanunlarda dəyişikliklər edilir

Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirildi. Komitə sədri Ziyad Səmədzadə bildirdi ki, ötən illərdə olduğu kimi, 2019-cu ildə də iqtisadiyyatın dinamik inkişafı davam etməkdədir.

Prezident İlham Əliyevin yeni iqtisadi inkişaf strategiyasının nailiyyətləri göz önündədir. Komitə sədri dövlət başçısının müvafiq sərəncamı ilə minimum əməkhaqqının artırılmasına da münasibət bildirərək dedi ki, minimum əməkhaqqının 38 faiz artması çox mühüm hadisədir. Bütün bunlar əhalinin yaşayış səviyyəsinin və rifahının daha da yaxşılaşmasına yönəlib.

Sonra Ziyad Səmədzadə gündəlikdəki məsələlərlə bağlı məlumat verərək müzakirəyə 10 sənədin təqdim olunduğunu bildirdi. Diqqətə çatdırıldı ki, "Dövlət rüsumu haqqında" qanuna dəyişikliklər edilməsi Əqli Mülkiyyət Agentliyi tərəfindən göstərilən "Dövlət rüsumu haqqında" qanunda nəzərdə tutulan xidmətlərin və dövlət rüsumlarının məbləğinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" və "Patent haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihələrinə (hər ikisi 3-cü oxunuş) təklif olunan dəyişikliklərə əsasən, bir sıra yeni hüquqi hərəkətlərə görə dövlət rüsumları müəyyən olunub.

Müzakirəyə çıxarılan "Reklam haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə (ikinci oxunuş) ətrafında geniş fikir mübadiləsi oldu. Öncə iclasda iştirak edən Dövlət Reklam Agentliyinin direktor müavini Orxan Əliyev "Reklam haqqında" qanuna dəyişikliklərin mahiyyəti barədə məlumat verərək bildirildi ki, yeni redaksiyada verilən 26.1-ci maddəyə əsasən, reklam birbaşa və ya reklam daşıyıcısı vasitəsilə torpaq sahələrində, bina, qurğu və digər tikililərin fasadlarında, dam örtüklərində, bayıra ünvanlanmaqla qapıların, pəncərələrin, vitrinlərin çöl və iç tərəflərində, habelə açıq məkanda olan avadanlıqlarda, avtomobil yollarının tunellərində, dayanacaqlarında, yeraltı keçidlərində yerləşdirildiyi halda açıq məkanda reklam hesab olunur. Qanuna əlavə edilən 26.1-1-ci maddədə isə deyilir ki, Şəhərsalma və Tikinti Məcəlləsində nəzərdə tutulmuş müvafiq reklam qurğularının tikintisinə və istismarına icazə tələb olunur. Bu məcəllədə tikintisinə icazə tələb olunmayan reklam qurğularının quraşdırılması və sökülməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Sənəddə həmçinin açıq məkanda reklam yerləşdirmək üçün reklam yayıcısının Dövlət Reklam Agentliyindən aldığı icazənin maksimal müddətinin 1 ildən 3 ilədək artırılması və eyni zamanda icazə müqaviləsinin ləğvi, obyektlərin adını göstərən reklam hesab olunmayan lövhələrin ölçüsünün 2 kvadratmetrədək azaldılması və bir sıra dəqiqləşdirmə xarakterli dəyişikliklər nəzərdə tutulur.

Komitə sədri Ziyad Səmədzadə qeyd etdi ki, ölkədə Reklam Agentliyi yaradılıb və qarşısına ciddi vəzifələr qoyulub. Bugünkü reallıq tələb edir ki, "Reklam haqqında" qanuna dəyişiklər olunsun.

"Əmanətlərin tam sığortalanması haqqında" qanunda edilən dəyişikliyi Maliyyə Bazarlarına Nəzarət Palatasının nümayəndəsi Əfqan Baxışov təqdim etdi. Bildirildi ki, qanun 2016-cı ildə qəbul olunub və sənəddə əmanətlərin 3 il müddətinə tam sığortalanması göstərilir. Həmin müddət 2019-cu ildə bitdiyinə görə, onun daha bir il uzadılması təklif olunur. Bu düzəliş bank sektorunun dəstəklənməsinə, əhalinin banklara depozit qoymasının stimullaşdırılmasına xidmət edəcək.

İclasda daha sonra Mülki Prosessual Məcəllədə (1-ci oxunuş), İnzibati Xətalar Məcəlləsində (1-ci oxunuş), "Telekommunikasiya haqqında" (1-ci oxunuş), "İpoteka haqqında" (1-ci oxunuş), "Sığorta fəaliyyəti haqqında" (1-ci oxunuş), "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Reklam haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihələrinə edilən texniki düzəlişlər də müsbət qiymətləndirildi.

Deputatlardan İlham Əliyev, Vahid Əhmədov, Şəmsəddin Hacıyev, Tahir Mirkişili gündəlikdəki məsələlər barədə fikirlərini söylədilər, dəyişikliklərin əhəmiyyətini qeyd etdilər, bir sıra təkliflər verdilər. Müzakirələrin yekununda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli Məclisdə "Ailə institutunun formalaşmasında qanunvericiliyin rolu" mövzusunda ictimai dinləmə keçirilib

Fevralın 15-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə "Ailə institutunun formalaşmasında adət-ənənələrimiz" silsiləsindən "Ailə institutunun formalaşmasında qanunvericiliyin rolu" mövzusunda ictimai dinləmə keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Aqiyə Naxçıvanlı tədbiri açaraq mövzunun əhəmiyyətindən danışıb. Bildirib ki, bu tədbir cəmiyyəti narahat edən problemlər və onların həlli yollarının araşdırılmasına həsr edilib. Cəmiyyətin inkişafı, ilk növbədə, ailənin sabitliyindən, rifahından, ailə münasibətlərinin yüksək əxlaqi və mənəvi dəyərlər əsasında təşkilindən çox asılıdır. Ona görə də cəmiyyət hər zaman ailənin möhkəm bünövrə əsasında qurulmasına, onun inkişafına çalışmalıdır.

"Xalqımız hər zaman ailə dəyərlərini hər şeydən uca tutub və bu, bizim milli adət-ənənəmizə çevrilib. Biz bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirir, gənc nəslin sağlam ruhda tərbiyə olunmasına çalışırıq. Milli-mənəvi dəyərləri xalqımızın ən böyük sərvəti hesab edən ulu öndər Heydər Əliyev bu dəyərlərin qorunmasının vacibliyini daim vurğulayırdı", - deyə A.Naxçıvanlı bildirib.

Qeyd edilib ki, Konstitusiyamızda, qanunlarımızda ailənin mahiyyəti, ailə üzvlərinin vəzifə və hüquqları ilə bağlı xüsusi maddələr əks olunub. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit edilib. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığının aradan qaldırılması haqqında Azərbaycan Respublikasının qanunları qəbul edilib. Məişət zorakılığının aradan qaldırılması haqqında qanunu icra etmək üçün müvafiq qanunvericilik aktlarına əlavələr edilib, yeni normativ hüquqi aktlar qəbul olunub.

"Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmiz qadın hüquqlarının qorunması üzrə, demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə qoşulub. Ailə institutunun möhkəmlənməsi, gender bərabərliyinin təmin edilməsi dövlətimizin diqqətində olan mühüm məsələlərdən biridir. Bu istiqamətdə beynəlxalq hüquqa və ənənələrimizə söykənən hüquqi normativ aktlarımız var. Ancaq ölkəmizdə ailə institutunun formalaşması üçün yaradılan qanunvericilik bazası, aparılan profilaktik maarifləndirmə işlərinə baxmayaraq, təəssüflər olsun ki, bu sahədə hələ də problemlər mövcuddur. Belə ki, erkən nikahlar, nikahdankənar evlilik sosial problem kimi bu gün aktual problemə çevrilib. Hazırda cəmiyyətimizi narahat edən ciddi problemdən biri də boşanma hallarıdır", - deyə A.Naxçıvanlı diqqətə çatdırıb.

"Sağlam ailə modelinin qorunması və ailə institutunun dayanıqlı inkişafı" barədə məruzə edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov mövzunun aktuallığını vurğulayaraq deyib ki, ailənin möhkəm olması üçün, ilk növbədə, ailə quranlar sağlam olmalıdırlar. 2014-cü ildə Milli Məclisdə Ailə Məcəlləsində böyük əhəmiyyət kəsb edən dəyişiklik edildi. Belə ki, nikaha daxil olan bütün insanlar icbari tibbi müayinədən keçməlidirlər. Boşanmaların sayı haqqında danışan komitə sədri qeyd edib ki, bu gün dünya statistikasında sonsuzluq səbəbindən ailələrin dağılması təxminən 30-35 faiz təşkil edir.

Əhliman Əmiraslanov, həmçinin "İcbari sığorta haqqında" qanunun əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, nikahdan öncə tərəflərin mütləq qaydada tibbi müayinədən keçməsi sayəsində son 3 ildə ölkəmizdə talassemiya, hemofiliya kimi qan xəstəlikləri ilə dünyaya gələn uşaqların sayı 45 faiz azalıb. Bu sessiyada qəbul edilməsi nəzərdə tutulan "Reproduktiv sağlamlıq haqqında" qanun da ailə modelinin qorunmasında mühüm rol oynayacaq.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova "Müasir ailə modelinin təməl prinsipləri" mövzusunda məruzə edərək deyib ki, ailənin vətəndaş cəmiyyətinin inkişafında xüsusi rolu var. Azərbaycanın ailə modeli əsrlərboyu öz dəyərləri ilə ən nümunəvi sosial institutlardan biri olub. Hər xalqın özünü təsdiq və inkişaf etməsində ailənin rolu çox böyükdür. Bu institutun möhkəmliyi cəmiyyətin, dövlətin güclənməsi və inkişafı deməkdir. Prezident İlham Əliyev hər zaman qeyd edir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun maraqları, rifahı durur. Bunun bariz nümunəsi hər il dövlət başçısının imzaladığı fərman və sərəncamların 65 faizinin məhz sosialyönümlü olmasıdır. Dövlətimiz daim öz vətəndaşına qayğı ilə yanaşır və onun sosial problemlərinin həllini prioritet vəzifə kimi görür, bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirilir. Ölkəmizdə aparılan bu sosial və iqtisadi quruculuq işləri ailə institutunun möhkəmlənməsinə öz töhfəsini verir. Bu islahatların nəticəsi olaraq, Azərbaycanda qaçqın və məcburi köçkün, şəhid ailələri, təqaüdçülər, aztəminatlı, çoxuşaqlı, gənc ailələrin sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır.

Gənc nəslə ailə dəyərlərinin aşılanması vacibliyindən bəhs edən Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev bu istiqamətdə komitənin gördüyü işlər və gələcək planları barədə məlumat verib. Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə "Gənclər siyasəti haqqında" qanuna mühüm dəyişikliklər edildiyini bildirib.

Ülvi Quliyev deyib ki, hər bir xalqın özünəməxsus ənənələri və dəyərləri mövcuddur. Ailə institutu bizim cəmiyyətdə əvəzolunmaz dəyərdir, müqəddəsdir, milli-mənəvi dəyərlərimizin əsas sütunlarındandır. Ailə institutunun cəmiyyətimizin, dövlətimizin inkişafında böyük rolu var. Çünki şəxsiyyətlər məhz ailədə formalaşır. Humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərdlik, xeyriyyəçilik ailədə formalaşan ən yüksək keyfiyyətlərdir. Bu baxımdan ailənin rolu əvəzsizdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov "Milli-mənəvi dəyərlərin qorunub saxlanması" mövzusunda danışıb. Xatırladıb ki, komitənin nəzdində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Bu qurumun fəaliyyətinin əsasını milli-mənəvi dəyərlərimizin təbliği təşkil edir. Bunun üçün qurum intensiv iş aparır, maarifləndirici filmlər çəkilir. Ailələrimizin bütövlüyünü qorumaq üçün mənəviyyatımızı gücləndirməliyik. Dinimiz insanlara düzgün təbliğ edilməlidir.

Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev "Azərbaycan ailə modeli konstitusiya müstəvisində" mövzusunda məruzə edib. C.Qaracayev boşanmaların fəsadlarından da danışıb. Bildirib ki, il ərzində 50-60 min nikah bağlanır. Lakin bu nikahların heç də hamısını qoruyub saxlamaq olmur. Belə ki, ailələr müxtəlif səbəblərdən dağılır. Boşanmadan öncə tərəflər ayrı yaşamağı bacardıqlarını sübut etməlidirlər. Amma hər şeydən əvvəl ailə daxilində qarşılıqlı hörmət olmalıdır. Tərəflər uşaqları da nəzərə almalıdırlar. Boşanmadan sonra uşaqlar təcrid olunmamalı, digər valideyni ilə görüşməsi təmin edilməlidir. Boşanmanın özü də ədalətli olmalıdır.

Sonra boşanma halları, qeyri-rəsmi nikahlar, erkən nikahlar, məişət zorakılığı və müvafiq problemlər ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# Ölkəmizin sabahına Prezident qayğısı

*Əvvəli 1-ci səh.*

Yəni peşə məktəblərində təhsil alan tələbələrdən tutmuş bakalavr, magistratura və doktorantura pilləsinə qədər təhsildə akademik nailiyyətləri olan təhsilalanların dövlət qayğısı ilə əhatə olunması nəzərdə tutulur. Bütövlükdə dövlət qayğısı 1 mart 2019-cu il tarixdən etibarən mərhələli şəkildə təhsildə akademik nailiyyətləri olan tələbələrin mütləq əksəriyyətini əhatə edəcəkdir. Belə ki, Prezident İlham Əliyevin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barəsində"ki sərəncamına əsasən 1 mart 2019-cu il tarixdən təqaüd alanların sayının 16 min vahid artırılaraq hazırda hazırkı 31 faizdən cəmi 6 ay sonra, növbəti tədris ilinin başlanğıcında 45 faizə, 2020-2021-ci tədris ilində isə 50 faizdən az olmayan səviyyəyə çatdırılacağı müəyyən edilmişdir. Qeyd edilənlər dövlətimiz üçün tələbə gənclər siyasətinin davamlı olduğunu və strateji xarakter daşıdığını aydın surətdə göstərir. Bu, müstəqil dövlətimizin ölkəmizin sabahı olacaq yeni nəsil gəncliklə əlaqədar qayğılara özünün strateji xəttində ardıcıl olaraq yer verdiyini nümayiş etdirir. Bir az əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə üzrə gənclərlə keçirdiyi tarixi görüşdə yeni nəslin inkişafı ilə əlaqədar səsləndirdiyi fikirlər ilk olaraq tələbələrin təqaüdlərinin artırılması ilə əlaqədar dövlət sərəncamında öz əksini tapmışdır. Bununla Azərbaycan Prezidenti növbəti dəfə də verdiyi vədi həyata keçirməkdə qərarlı olduğunu nümayiş etdirir.

Bundan başqa, tələbələrin təqaüdlərinin artırılması üçün akademik göstəricilərin, qazanılan təhsil nailiyyətlərinin əsas faktor kimi qəbul edilməsi dövlət qayğısının sadəcə sosial təminat olmayıb, həm də bilik və bacarıqların, mütəxəssis hazırlığının daim yüksəldilməsinə hesablanmış maddi stimul olduğunu nəzərə çarpdırır. Bu isə, heç şübhəsiz, öz növbəsində ölkəmizdə yüksəkixtisaslı mütəxəssis hazırlığının keyfiyyətinin daha da artırılmasına ciddi təkan verəcəkdir. Xüsusən möhtərəm Prezidentin "Azərbaycan Respublikasının ali məktəblərində Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli fərmanında dəyişiklik edilməsi haqqında" 14 fevral 2019-cu il tarixli fərmanı bu məsələyə də yenidən qayıtmağı və Prezident təqaüdünün mövcud 180 manatdan 210 manata çatdırılması yüksək istedadlı tələbələrə əlavə qayğının göstərildiyini nəzərə çarpdırır. Bu, həm də respublikamızda Prezident təqaüdlü tələbələrin və məzunların reytinqinin yüksəldilməsinə də meydan açacaqdır.



Prezident sərəncamına uyğun olaraq təqaüdlərin artırılması ödənişli əsaslarla oxuyan tələbələri də əhatə edəcəkdir ki, bu da ölkəmizdə özəl ali təhsil sektorunun da inkişaf etdirilməsinə, təhsilin bu sektorunda təhsil alan tələbələrin də normal ali təhsil almalarına stimul verəcəkdir. Sərəncamda peşə məktəbi müdavimlərinin də nəzərdə tutulması son illərdə özünün yenidən inkişafına başlamış peşə təhsilinə marağı bir qədər də artırmağa xidmət edəcəkdir.

Tələbə təqaüdləri faktorunun dövlət siyasətinin diqqət mərkəzinə çəkilməsi təhsil kredit fondu yaradılması məsələsini yenidən gündəmə gətirir. Məlum olduğu kimi, həmin istiqamətdə artıq ilk addımlar atılmışdır. Təhsil Nazirliyinin xətti ilə yaradılmış "Maarifçi" təhsil kredit mərkəzi 2016-cı ildən ödənişli əsaslarla oxuyan tələbələrə kiçik faizlə uzunmüddətli kreditlərin verilməsini həyata keçirməkdədir. "Maarifçi" təhsil kredit mərkəzi hələlik ölkəmizdə fəaliyyət göstərən 14 ali məktəbin ayırdığı müəyyən bir maliyyə vəsaiti hesabına fəaliyyət göstərdiyi üçün ehtiyacı olan tələbələrin yalnız az bir qismini əhatə edə bilmişdir. Bizdə olan məlumata görə, bu vaxtadək iki yüz nəfərdən bir qədər artıq tələbə kredit fondundan faydalana bilmişdir. Nədənsə ölkəmizin sahibkarları bu cəlbedici sahəyə maraq göstərmirlər. Təhsil kredit fondu ilə əlaqəli işləmək bir qədər uzun vaxt tələb edən məsələ olmasına baxmayaraq, dünyada sərfəli biznes sahələrindən biri hesab olunur. Həm də nəzərə almaq lazımdır ki, ehtiyacı olan tələbələrin təhsilini davam etdirməsinə və başa çatdırılmasına qoyulan maliyyə vəsaiti nəticə etibarilə ölkəmizin gələcəyinə yatırılmış yatırım olduğu üçün maddi qazancdan çox mənəvi borc kimi də mühüm əhəmiyyətə malikdir. Düşünürəm ki, sahibkarlar ölkə gəncliyi üçün əhəmiyyətli olan bu sahəyə diqqət yetirəcəklər.

Azərbaycan Respublikasının Milli Məclisində "Təhsil kreditləri haqqında" qanunun hazırlanmasına təşəbbüslər göstərilmiş, hətta müəyyən qanun layihəsi də hazırlanmışdır. Bu, qanun layihəsini yalnız ilkin kapital qoyuluşu məsələsində mövcud olan probleme görə gündəmə gətirmək mümkün olmamışdır. Ümid edirik ki, Azərbaycan Prezidentinin tələbə gəncliyinə göstərdiyi müstəsna qayğıdan sonra sahibkarlar mühitində də bu istiqamətdə canlanma baş verəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doktorantların, magistrlərin və tələbələrin təqaüdlərinin artırılması sahəsində atdığı böyük addımlar ölkəmizin tələbə gəncliyinə göstərilmiş böyük qayğının daha bir əməli ifadəsidir. Azərbaycan ziyalıları, təhsil ictimaiyyəti, çoxminli tələbələr - ölkəmizin yeni gənc nəsli möhtərəm Prezidentin müstəqil dövlətimizin daha parlaq gələcəyi naminə tələbə gənclərə göstərdiyi qayğını yüksək qiymətləndirir və dövlət başçısının respublikamızın daha böyük inkişafı üçün atdığı addımları xalqımız sabahına hesablanmış, düşünülmüş və məqsədyönlü tarixi qərarlar kimi qəbul edir. Bütün bunlar həm də tələbələrin üzərinə böyük vəzifələr qoyur. İnanırıq ki, tələbələrimiz daha səylə oxuyaraq, müstəqil Azərbaycan dövlətinin ümidlərini doğrultmaq, ölkəmiz üçün yüksək hazırlıqlı, vətənpərvər kadr potensialına çevrilmək üçün var qüvvə ilə çalışacaqlar.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

# Lider örnəyi

## Xalqın İLHAM ƏLİYEV sevgisi sarsılmaz birliyin təcəssümüdür

*Əvvəli 1-ci səh.*

### Ali Baş Komandan kimi əsgərin, Prezident kimi xalqın yanında

Beyləqana səfəri çərçivəsində Silahlı Qüvvələrin Ali Baş Komandanı Müdafiə Nazirliyinin yeni inşa edilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə də tanış oldu.

Bu bir həqiqətdir ki, hazırda dünyanın ən güclü 50 ordusu sırasında olan Azərbaycan Ordusunun bu uğurunu şərtləndirən ölkəmizin dinamik iqtisadi inkişafıdır. Bu inkişaf Silahlı Qüvvələrin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb.

Hərbi hissə ilə tanış olduqdan sonra yeməkxanada yaradılan şəraitlə maraqlanan Prezident həm də əsgər atası kimi hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etdi. Bu da bir daha təsdiq etdi ki, İlham Əliyev hər zaman Prezident kimi xalqının, Ali Baş Komandan kimi əsgərin yanındadır.

Orduda aparılan islahatlar bəhrə verir. Döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasını prioritet vəzifə kimi müəyyənləşdirən Prezident təmas xəttində yerləşən bölgələrə mütəmadi səfərlər edir. Ali Baş Komandanın əsgərlərlə keçirdiyi görüşlər onları Vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa qalxmağa ruhlandırır.

### Prezident Ehtiyat Fondundan 5 milyon manat vəsait ayırdı

Əminliklə deyə bilərik ki, Azərbaycanda dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Beyləqanda vətəndaşlarla görüşüb onların problemləri ilə maraqlanan və onların həlli istiqamətində göstərişlərin, sərəncamların veriləcəyini söyləyən Prezident İlham Əliyevin Bakıya dönən kimi verdiyi qərarlar da bunu bir daha təsdiqləyir.

Dövlət başçısı Beyləqan rayonunun Dünyamalılar kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi və Beyləqan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında 2 sərəncam imzalayaraq Prezidentin Ehtiyat Fondundan ümumilikdə 5 milyon manat vəsait ayırdı.

Bu vəsaitin 2 milyon manatı rayonun Dünyamalılar kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Təhsil Nazirliyinə, 3 milyon manatı isə istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və abadlıq-quruculuq işlərini davam etdirmək məqsədilə rayon icra hakimiyyətinə ayrılıb.

### Xalqının mənafeyini hər şeydən uca tutan lider

Göründüyü kimi, hər zaman siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan Prezident İlham Əliyev atdığı addımlarla, verdiyi qərarlarla xalqın sevimli liderinə çevrilib. Dövlət başçısının məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti ölkəmizin müstəqilliyinin, iqtisadi tərəqqisinin təmin edilməsinə yönəlib.

"Real" televiziyasına müsahibəsində də bu məsələyə toxunan Prezident qeyd etdi ki, xalq-iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitliyin qorunmasının təminatçısı Azərbaycan xalqıdır: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca, ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq. Son illər bu istiqamətdə çox böyük işlər görülmüşdür... Dövlət-vətəndaş münasibətləri sağlam zəmində qurulub. Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə Azərbaycan dövləti onun yanında olacaq. Dövlət isə tam əmindir ki, vətəndaş hər zaman dövlətin arxasında olacaq".

Azərbaycanın dünya siyasətinin mühüm halqasına, qlobal proseslərdə vacib aktora çevrilməsi məhz İlham Əliyevin nüfuzlu dövlət xadimi, qətiyyətli, xalqının mənafeyini hər şeydən uca tutan lider olması ilə şərtlənir. Əminliklə söyləyə bilərik ki, məhz İlham Əliyevin qətiyyətli qərarları ilə yaratdığı yeni tarixi reallıq Azərbaycanı yeni zəfərlərə, qüdrətli gələcəyə doğru aparır.

*Bunu 16 il öncə ulu öndər Heydər Əliyev xalqa müraciətində də söyləmişdi: "Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Böyük öndər bu fikri ilə Azərbaycan xalqına onun alternativsiz siyasi kursunu davam etdirə biləcək ünvanı göstərmişdi. Çünki tam əmin idi ki, müstəqil Azərbaycanın işıqlı gələcəyi üçün müəyyənləşdirdiyi inkişaf konsepsiyasını məhz cənab İlham Əliyev uğurla davam etdirərək reallığa çevirə bilər və bu gün artıq ulu öndərin fikirləri təsdiqini tapır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Müəllifi İlham Əliyevdir





# 1 ünvanda 320 xidmət

## Sumqayıtda 6 ildir ki, əhaliyə xidmət "ASAN"laşıb




Əvvəli 1-ci səh.

### 10 rayona fasiləsiz xidmət göstərən mərkəz

"ASAN xidmət"in şöbə müdiri Elnur Niftəliyev söylədi ki, bu mərkəz Sumqayıt, Abşeron, Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz, Şamaxı, Qobustan rayonlarında qeydiyyatda olan vətəndaşlara xidmət göstərir. Mərkəz həftənin bazar ertəsi - cümə günləri saat 09:00-dan 19:00-dək, şənbə və bazar günləri isə saat 09:00-dan 17:00-dək fəaliyyətdədir.

Hazırda bütün "ASAN xidmət" mərkəzlərində olduğu kimi burda da 11 dövlət orqanı, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox müxtəlif xidmət göstərilir.

### Gün ərzində 2500 vətəndaşa xidmət göstərilir

Müşahidə etdik ki, "ASAN xidmət" mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, uşaq əyləncə guşəsi, internet-kafe, poçt şöbələri, fotostudiya da fəaliyyət göstərir. Mərkəzdə fəaliyyət göstərən dövlət orqanları və funksional yardımçı xidmətlər tərəfindən gün ərzində ümumilikdə 2000-2500 vətəndaşa xidmət göstərilir.

Sumqayıt regional "ASAN xidmət" mərkəzinin böyük məsləhətçisi Səbinə Nəsirova qeyd etdi ki, gün ərzində daha çox şəxsiyyət vəsiqəsinin verilməsi, dəyişdirilməsi, vətəndaş pasportunun dəyişdirilməsi, doğum haqqında şəhadətnamənin verilməsi, sürücülük vəsiqələrinin, vergi ödəyicilərinin qeydiyyata alınması ilə bağlı müraciətlər olur.

### Fiziki məhdudiyyətli insanlar üçün hər cür şərait yaradılıb

Burada fiziki məhdudiyyətli insanlar üçün də bütün zəruri şərait yaradılıb. Binanın girişində onlar üçün xüsusi lift quraşdırılıb. Gözdən əlillərin sərbəst hərəkəti üçün isə hər bir mərtəbənin döşəməsinə xüsusi örtüklər vurulub və lövhələr onların oxuya biləcəkləri müvafiq hərflərlə hazırlanıb.

Vətəndaşlar mərkəzdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərinin, kredit və sığorta ödənişlərini həyata keçirirlər.

Mərkəzdə həm də ana otağı mövcuddur. Südəmər körpəsi ilə mərkəzə gələn ana bu otaqdan istifadə edə bilər. Birinci mərtəbədə yerləşən uşaq əyləncə mərkəzinə yaxınlaşan zaman isə 4-5 balacanın oyuncaqlarla oynadığının şahidi olduq. Könüllü Aysel İbadova onlara nəzarət edirdi. Ayselin dediyinə görə, bu xidmət pulsuz həyata keçirilir. Məqsəd, uşağı olan vətəndaşların işini asanlaşdırmaqdır. Uşaqlar burda maksimum 2 saat qala bilərlər. Bu müddətdə valideynlər işlərini başa vurur və uşaqlarını təhvil alıb gedirlər.






### Xidmətin səlahiyyətləri artırılır

Mərkəzin üçüncü mərtəbəsində təmir işləri gedirdi. Əldə etdiyimiz məlumata görə, Prezident İlham Əliyevin bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında 17 yanvar 2019-cu il tarixli fərmanından irəli gələrək bəzi xidmətlər üzrə pəncərələrin sayı artırılır və əhalinin rahatlığını təmin etmək üçün işlər aparılır.

Xatırladaq ki, Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, "ASAN xidmət"in icra etdiyi funksiyaların digər nazirlik və komitələrdə paralel şəkildə aparılması aradan qaldırılıb. Belə ki, indiyə qədər "ASAN xidmət"lə bərabər, digər rəsmi qurumlarda da paralel xidmətlər göstərilirdi. Bu fərmanla bütün səlahiyyətlər "ASAN xidmət"ə verilib. Bununla da, "ASAN xidmət" mərkəzləri müvafiq dövlət xidmətlərinin alternativsiz formada həyata keçirildiyi vahid məkana çevriləcək.

"ASAN xidmət"in şöbə müdiri Elnur Niftəliyev bildirdi ki, elə xidmətlər var ki, onunla bağlı daha çox müraciətlər daxil olur. Buna görə də elə "ASAN xidmət" mərkəzləri olacaq ki, orada pəncərələrin sayı, bəzi mərkəzlərdə isə əməkdaşların sayı artırılacaq. Amma yenə də əhaliyə təklif olunacaq dövlət qurumlarının xidmətləri həmin dövlət orqanlarının əməkdaşları tərəfindən reallaşdırılacaq. Şəxsiyyət vəsiqəsini Daxili İşlər Nazirliyinin əməkdaşları, yaxud doğum haqqında şəhadətnaməni Ədliyyə Nazirliyinin əməkdaşları verir. Sadəcə məkan olaraq artıq "ASAN xidmət" alternativsiz fəaliyyət göstərəcək.

### Səyyar xidmət konsepsiyası

Onu da əlavə edək ki, Sumqayıt "ASAN xidmət" mərkəzi bölgələrdə də səyyar xidmət göstərir. Xidmətin səyyar avtobusunda səyyar xidmət konsepsiyasının əsas komponentləri - alternativ enerji mənbələrindən istifadə olunması, nağdsız hesablaşmaların və şəffaflığın təmin edilməsi, vətəndaşların dövlət orqanlarına etimadının gücləndirilməsi əksini tapıb. Səyyar qrupların hər biri şəhər və rayonlarda 15 gündən bir ayadək vətəndaşlara xidmət göstərir. Qrup müvafiq şəhər və rayona daxil olarkən xidmətlərin həyata keçirilməsi üçün iki iş günü ərzində nəzərdə tutulmuş xüsusi məkanlarda yerləşdirilir.

Hazırda regionlarda 10 Səyyar "ASAN xidmət" avtobusu və Səyyar "ASAN qatar" vasitəsi ilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 1 milyon 600 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib. Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

### Könüllülər - cəmiyyətin fəal üzvləri

Hər bir "ASAN xidmət" mərkəzində olduğu kimi, Sumqayıt regional "ASAN xidmət"də də könüllülərlə rastlaşa bilərsiniz. Onlar "ASAN xidmət" konsepsiyasının bir komponentidirlər. Vətəndaşlara istənilən köməyi göstərən bu gənclərin sayı hazırda 75 nəfərdir. Ölkəmizdə "ASAN" könüllülərinin sayı isə 17 mindən çoxdur.

Prezident İlham Əliyev də Sumqayıt regional "ASAN xidmət" mərkəzinin açılışında könüllülərlə görüşdə onlara göstərdikləri təşəbbüsə görə minnətdarlığını ifadə etmişdi: "Bu, sizin üçün də gözəl təcrübədir. İlk növbədə gələcək fəaliyyətiniz üçün, hesab edirəm ki, çox vacib olan təcrübədir. Digər tərəfdən, bax bu valantyorluq sizin niyyətinizi göstərir, onu ifadə edir. Yəni, siz cəmiyyətin fəal üzvlərisiniz. Əgər siz könüllü şəkildə, necə deyərlər, vətəndaşlara və dövlətə təmənnasız kömək etmək istəyirsinizsə, deməli sizin niyyətiniz çox xoşməramlıdır və ölkəmizin ümumi inkişafına tam uyğundur. Bax, belə gənclər olmalıdır, Vətəni sevən, insanlara xoş münasibət bildirən, peşəkar, bilikli və müasir. Mən sizə uğurlar arzulayıram. Sizə bax bu təşəbbüsə görə minnətdarlığımı bildirmək istəyirəm".

### Mərkəzdə çalışan işçilərdən bəziləri könüllülərin arasından seçilib

Könüllülərdən 20 yaşlı Aytən İlyasova Bakı Dövlət Universitetinin tələbəsidir. İmtahanlarını bitirib qış tətilinə çıxdığı üçün evdəki boş zamanını dəyərləndirmək məqsədilə burda könüllü işləməyə başlayıb. Dediyinə görə, bu ona real iş həyatı ilə tanışlıq imkanı yaradır, eyni zamanda yeni dostluqlar qazandırır.

Taryel də 1 aydır ki, könüllülər sırasındadır. 24 yaşı var. Bir ay ərzində çox şey əldə etdiyini deyir. İşindən, vətəndaşlara xidmət etməkdən çox zövq alır. İş günü nə qədər gərgin keçsə də heç hiss etmədiyini vurğulayan Taryel bura gözəl kollektiv, sosial ətraf və iş təcrübəsi qazanmaq üçün gəldiyini deyir.

Vətəndaşlar arasında sorğu keçirən Gülşanə Əliyeva da gənc könüllüdür. Artıq günün yarısına kimi xeyli adam sorğuda iştirak edib. Hamı da razılığını bildirir. Qeyd edək ki, respublika üzrə keçirilən rəy sorğularına əsasən vətəndaşların "ASAN xidmət" mərkəzlərindəki xidmətlərdən məmunluq əmsalı 99,6 faiz təşkil edir.

Onu da öyrəndik ki, Sumqayıt "ASAN könüllüləri" tərəfindən mütəmadi olaraq müxtəlif tamaşalar reallaşdırılır. Elə bu yaxınlarda, 2 fevral - Gənclər Günü münasibətilə Sumqayıt "ASAN könüllülər"i Sumqayıt Dövlət Dram Teatrında dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını səhnələşdiriblər.

Bu məlumatı da verdilər ki, Sumqayıt regional "ASAN xidmət" mərkəzində 20-yə yaxın işçi könüllülərin arasından seçilib.

### 2019-cu ildə "ASAN" bütün ölkəni əhatə edəcək

Ümumiyyətlə, "ASAN xidmət" mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, müasir texnologiyaların tətbiqidir.

Elnur Niftəliyev deyir ki, 2019-cu ildə Tovuzda, Balakəndə, Ağcabədidə, Kürdəmirdə, Şamaxıda "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayacaq: "Bununla da xidmət mərkəzlərinin sayı 20-yə çatacaq. Bu 5 mərkəz açıldıqdan sonra bütövlükdə ölkə ərazisini əhatə etmiş olacağıq. Hansı yerdə ki, "ASAN xidmət" mərkəzləri yoxdur, orada da səyyar "ASAN xidmət" mərkəzləri fəaliyyət göstərəcək. Bu, xidmətlərin vətəndaşlarımıza daha əlçatan və innovativ üsullarla çatdırılması üçün edilir.

*Göründüyü kimi, 2013-cü ildən ölkəmizdə fəaliyyət göstərən "ASAN xidmət" hər bir vətəndaşın işini asanlaşdırır və problemlərin minimum qısa vaxt ərzində həllinə yardımçı olaraq xalqın rəğbətini qazana bilib.*

***Fərizə ƏHMƏDOVA, A.MƏMMƏDOV (foto), "Azərbaycan"***







# Tələbələrin sosial müdafiəsi gücləndirilir

## 600-ə yaxın doktorantın, 110 mindən artıq tələbənin təqaüdü orta hesabla 20 faiz artırılır



"Tələbə təqaüdlərinin artırılması ilə bağlı dövlət büdcəsindən ilkin hesablanmalara görə 25 milyon manat əlavə maliyyənin ayrılması nəzərdə tutulub. Bütün təhsil pilləsi və səviyyələrində nəzərdə tutulan təqaüd məbləğləri əhəmiyyətli dərəcədə artırılır. 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdləri orta hesabla 20 faiz artacaq".

Bu sözləri Prezident İlham Əliyevin təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı imzaladığı fərman və sərəncamları şərh edərkən təhsil naziri Ceyhun Bayramov söyləyib.

### Ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımlar atılıb

Nazir qeyd edib ki, son illərdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi və bu sahənin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparılıb. Yeni inkişaf trendləri əsas götürülməklə universitetlərin kadr potensialı və maddi-texniki bazası gücləndirilib, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımlar atılıb.

Ceyhun Bayramov bildirib ki, hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün, qəbul göstəriciləri yuxarı olan gələcəyin müəllimlərinə təqaüdlərin verilməsi, gənclər üçün Prezident mükafatının təsis edilməsi onların daha yaxşı təhsil ala bilməsi, təhsilin əlçatanlığının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Nazir təqaüd sisteminin təkmilləşdirilməsinin ölkə Prezidentinin təhsilə qayğısının bariz nümunəsi olduğunu, ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət etdiyini diqqətə çatdırıb.

### 2021-ci ildə tələbələrin 50 faizi təqaüd alacaq

Nazirin sözlərinə görə, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sərəncama əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 2019-cu il martın 1-dən 16 min vahid artırılması və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019-2020-ci tədris ilində 45 faizə, 2020-2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması nəzərdə tutulur.

Ceyhun Bayramov qeyd edib ki, sərəncamla ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 30 faiz artacaq: "Bu da öz növbəsində ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısını artıracaq və müvəffəqiyyət göstəriciləri nümayiş etdirmiş tələbələrə təqaüd almaları üçün əlavə imkanlar yaradacaq. 2016-cı ildə qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, təqaüdlərin ödənilməsi yalnız dövlət sifarişi əsasında təhsil alan tələbələrə deyil, eyni zamanda ümumi orta müvəffəqiyyət göstəricisi və fənlər üzrə akademik nailiyyətləri nəzərə alınmaqla ödənişli əsaslarla təhsil alan tələbələrə də şamil edilib".

### Daha yüksək təqaüd almaq üçün çalışmaq lazımdır

Hər bir tələbənin təqaüd almaq istədiyini deyən nazir vurğulayıb ki, daha yüksək təqaüd almaq üçün çalışmaq lazımdır: "Əvvəlki illərlə müqayisədə rəqabətlilik mühiti bu gün də var. Təqaüd bütün ali təhsil müəssisələrinə şamil ediləcək. Yəni özəl ali məktəblərdə oxuyan və akademik göstəriciləri yüksək olan tələbələr də artımla olan vəsaitləri ala biləcəklər".

Ceyhun Bayramov bildirib ki, Nazirlər Kabinetinin tapşırığı ilə ali məktəblərdə müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 16 min artırılması ilə bağlı ilkin təkliflər var: "İlkin təkliflər hazırlanıb, hökumət tərəfindən təsdiq olunduqdan sonra ictimaiyyətə ətraflı məlumat veriləcək".

Bütün bunlar göstərir ki, ölkəmizdə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısı daha da artırılır.

***F.ƏHMƏDOVA, "Azərbaycan"***

# Pensiyaçılardan tələbələrədək

## Ölkədə ardıcıl həyata keçirilən sosial siyasət cəmiyyətin bütün təbəqələrini əhatə edir

Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasət sayəsində həm iqtisadi inkişafın sürətlənməsi, həm də əhalinin sosial vəziyyətinin köklü şəkildə yaxşılaşması bu gün hər kəsin öz həyatında yaşadığı reallıqdır.

Maaşların 7, pensiyaların 9, minimum əməkhaqqının 6,5 dəfə artması ölkə əhaslisinin həyat şəraitinin, güzəranının xeyli yaxşılaşdırılmasına xidmət edir. Onu da qeyd edək ki, əhalinin sosial rifahının yaxşılaşdırılması üçün görülən tədbirlər mütəmadi xarakter daşıyır.

Hər il olduğu kimi, cari ilin əvvəlindən də dövlət başçısı tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində bir sıra mühüm qərarlar qəbul edilib. Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin 8 fevral 2019-cu il tarixli sərəncamı ilə cari il martın 1-dən ölkə üzrə minimum aylıq əməkhaqqı 180 manat müəyyən olunmuşdur. Bu sərəncam ölkə əhalisinin 600 min nəfərinin aylıq əməkhaqqının artmasını təmin edir. Mütəxəssislər qeyd edirlər ki, həmin sərəncamdan sonra dövlət sektorunda çalışanların 450 min, özəl sektorda işləyənlərin isə 150 min nəfərinin əməkhaqlarında 30 faiz artım olacaq. Amma bu, təbii ki, son hədəf deyil. Dövlətin əsas hədəfi qarşıdakı yaxın illərdə minimum əməkhaqqını orta aylıq əməkhaqqının 60 faizinə çatdırmaqdır.

Dövlət başçısının təşəbbüsü ilə minimum əmək pensiyasının artırılması üçün hazırlanan qanun layihəsi də əhalinin sosial müdafiəsinin yaxşılaşmasına xidmət edir. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev həmin qanun layihəsini şərh edərək bildirib ki, əmək pensiyasının minimum məbləğinin martın 1-dən 38,5 faiz artırılaraq 116, bir sıra kateqoriyalar üzrə isə 80 manatdan 160 manata çatdırılması əhalinin sosial rifahının yaxşılaşmasında mühüm rol oynayacaq. Belə ki, minimum pensiya məbləğinin artırılması 223 min pensiyaçını, o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi əhatə edəcək. Həmin kateqoriyadan olanların 9 min nəfərinin pensiyasında 93 (yəni 75 manat), 26 min nəfərin pensiyasında 30 (37 manat), 74 min nəfərin pensiyasında 16 faiz (27 manat) artım olacaq. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna cari ilin 10 ayında, yeni martdan dekabradək 41 milyon, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək.

Prezidentin imzaladığı 14 fevral 2019-cu il tarixli "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" fərmanında dəyişiklik edilməsi nəticəsində bu kateqoriyadan olan tələbələr martın 1-dən 210 manat təqaüd alacaq. Xatırladaq ki, əvvəl alaçı tələbələrin təqaüdü 185 manat idi. Prezidentin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" 14 fevral 2019-cu il tarixli sərəncamına əsasən isə ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı martın 1-dən 16 min vahid artırılması və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayında olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq 50 faizdən az olmayaraq müəyyənləşdirilib. Göründüyü kimi, bu sənəd daha çox tələbənin təqaüd alaraq öz sosial müdafiəsini gücləndirməsinə xidmət edir.

Dövlət başçısının imzaladığı başqa bir sənəd - 14 fevral 2019-cu il tarixli "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsil müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncam isə elm və magistraturada oxuyanların bir çox kateqoriyasını əhatə edir. Bütün bunlar bir daha sübut edir ki, Prezident İlham Əliyevin "Bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsi durur" siyasəti ardıcıl tədbirlərlə özünün təsdiqini tapır.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Xalqın etimadını qazanmaq nümunəsi

## Mehriban Əliyevanın Gəncə səfəri xoş təəssüratlarla yadda qaldı

*Əvvəli 1-ci səh.*

Ölkədə ilk belə sürət qatarı məhz Gəncə istiqamətində istifadəyə verildi. Bu, bir daha ölkə rəhbərliyinin şəhərə xüsusi diqqətinin nümunəsi oldu.

Gəncəlilər İlham Əliyevin xüsusi diqqəti və qayğısını daim hiss edir və bunu yüksək qiymətləndirirlər. Təsadüfi deyil ki, bütün bunlar onların Mehriban Əliyeva ilə görüşündə bir daha ifadə olundu. “Biz Sizi çox istəyirik”, “Allah Prezidentimizin canını sağ eləsin”. “Hamımız Prezidentimizə təşəkkürümüzü, minnətdarlığımızı bildiririk”, “Gəncəlilər həmişə onun arxasındadır” kimi sözlər və Mehriban Əliyevadan Prezidentə salamlarını çatdırmağı xahiş etmələri gəncəlilərin ürəkdən gələn ən səmimi təşəkkürlərinin ifadəsi idi.

Sakinlərlə görüşdə İlham Əliyevin Gəncəyə xüsusi diqqət göstərdiyini deyən Mehriban Əliyeva həm də gəncəlilərin qonaqpərvərliyini və səmimiyyətini qeyd etdi: *“İlham Əliyev prezidentlik dövründə 15 dəfə Gəncədə olub, daim Gəncəyə diqqət göstərir. Gəncə bizim qədim şəhərdir, gözəl şəhərdir, böyük tarixə malik şəhərdir. Burada bütün tarixi, dini, memarlıq abidələri qorunur və qorunmalıdır. Amma, eyni zamanda, Gəncədə müasirlik var, müasir binalar, yeni yollar, infrastruktur, yeni parklar yaradılır. Xan bağı da qədim abidədir. Əlbəttə, tarixiliyi, qədim simanı qoruyub saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib. Burada təkrarolunmaz ab-hava var, əlbəttə, əsas gəncəlilərdir. Mən hər zaman sizin qonaqpərvərliyinizi, səmimiyyətinizi hiss edirəm, çox sağ olun, burada olmağıma çox şadam”.*

Mehriban Əliyeva Gəncəyə səfəri çərçivəsində qızı Leyla Əliyeva ilə birlikdə “İmamzadə” ziyarətgahını da ziyarət edib. Bu ziyarət, o cümlədən həmin gün orada Mehriban Əliyevanın adından ehsan süfrəsinin verilməsi Birinci vitse-prezidentin xalqımızın mənəvi dəyərlərinə bağlılığının təcəssümü oldu. Qeyd edək ki, dini-tarixi abidələrin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev “İmamzadə” kompleksinin də təmiri və bərpasına xüsusi qayğı göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlət başçısının sərəncam və göstərişləri sayəsində gözəl görkəm alıb.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın Gəncəyə səfər qrafiki zəngin idi. Ulu öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsinin ziyarəti ilə başlanan səfər zamanı Birinci vitse-prezident Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyində oldu, məktəbə, uşaq evinə və uşaq bağçasına baş çəkdi. Elə bu səfərdən sonra şəhərdəki Nizami Aydın adına 18 nömrəli tam orta məktəbə və 32 nömrəli körpələr evi-uşaq bağçasına yeni həyat veriləcək. Məktəbdəki mövcud vəziyyətin araşdırılması və təcili surətdə yenidən qurulması üçün tapşırıqlarını verən Mehriban Əliyeva, həmçinin körpələr evi-uşaq bağçasının da yenidən qurulmasının qısa zamanda və keyfiyyətlə həyata keçirilməsinin vacibliyini vurğuladı. Qısa müddətdən sonra bu təlim-tərbiyə ocaqları şəhərin ən gözəl ünvanları sırasında yer alacaq.

Birinci vitse-prezidentin Gəncə səfəri xoş təəssüratlarla yadda qaldı. Gəncəlilər Mehriban Əliyevanın timsalında bir daha ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə əhatə olunduqlarını gördülər. Eyni zamanda antiazərbaycançı dairələr də bir daha gördülər ki Azərbaycan xalqı öz Prezidentinin ətrafında sıx həmrəydir və heç bir qüvvə bunu sarsıda bilməz.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Milli Kitabxanada növbəti kitab sərgisi akademik Arif Paşayevin 85 illiyinə həsr edilib




Fevralın 15-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında görkəmli alim, pedaqoq, elm və təhsil təşkilatçısı, ictimai xadim, Dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Paşayevin 85 illiyi münasibətilə “Akademik Arif Paşayev” adlı kitab sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə reallaşan sərginin açılışından öncə kitabxananın direktoru Kərim Tahirov çıxış edərək görkəmli akademikin elmi fəaliyyəti haqqında məlumat verib.

Kitabxananın direktoru Azərbaycanda fizika, texnika və aerokosmika elminin inkişafında müstəsna rol oynamış, respublikamızda elmin, təhsilin təşkilində xüsusi xidmətlər göstərmiş görkəmli alim, bacarıqlı elm və təhsil təşkilatçısı, fəal ictimai xadim akademik Arif Paşayevin 30-dan artıq kitab və monoqrafiyanın, 400-dən çox elmi əsərin müəllifi olduğunu və fizikanın müxtəlif sahələrinə həsr olunmuş 300-ə yaxın elmi əsərinin xarici ölkə mətbuatında nəşr olunduğunu, eyni zamanda, 60-dan çox ixtira üçün müəlliflik şəhadətnaməsi və sənaye nümunələri aldığını, alimin əldə etdiyi elmi nəticələrin ixtira səviyyəsində işlənib beynəlxalq sərgi və müsabiqələrdə qızıl, gümüş medallar və diplomlarla təltif olunduğunu, bir sıra sənaye müəssisələrində tətbiq edildiyini diqqətə çatdırıb.

Qeyd edib ki, alimin elmi əsərləri mühüm praktiki əhəmiyyət kəsb etməklə yanaşı, gənc alimlər üçün də çox dəyərli mənbələrdir, akademikin əsərlərində əks olunan fundamental elmi-texniki nəticələr, faydalı elmi, elmi-təşkilati və pedaqoji fəaliyyəti, Azərbaycanda ali aviasiya təhsilinin müasir səviyyədə təşkili tanınmış ziyalının müstəsna xidmətlərindəndir.

K.Tahirov deyib: “Azərbaycan yazıçısı, görkəmli ədəbiyyatşünas alim, professor Mir Cəlal Paşayevin ailəsində dünyaya gəlmiş, özü də Azərbaycan elminə, təhsilinə layiqincə xidmət etmiş ziyalı milli dəyərlərimizin dünya miqyasında təbliğində əvəzsiz rolu olan övladlar yetirmişdir. Səmərəli elmi və elmi-təşkilati işlə yanaşı, olduqca faydalı pedaqoji fəaliyyətlə də məşğul olan akademik Arif Paşayevin rektoru olduğu Milli Aviasiya Akademiyası respublikamızın qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilib. Azərbaycanda ilk dəfə olaraq müasir dünya standartlarına uyğun, təhsil, elm və istehsalatın vəhdətini nəzərdə tutan ali təhsil ocağı yaratmağa nail olmuş akademik Arif Paşayev ölkəmizdə aviasiya təhsilinin müasir səviyyədə inkişafına gərgin əmək sərf edən, gənc nəslin təlim və tərbiyəsini həmişə diqqətdə saxlayan qayğıkeş rəhbərdir”.

Kitabxananın direktor müavinləri Ədibə İsmayılova və Mələk Xanım Hacıyeva tədqiqatlarının əsas hissəsi yeni cihazların yaradılmasına, mövcud cihazların təkmilləşdirilməsinə, müxtəlif fiziki kəmiyyətlərin ölçülməsinin yeni metodlarının işlənilməsinə yönəldilmiş, yüksək elmi-praktiki potensiala və təşkilatçılıq qabiliyyətinə malik olan görkəmli alimin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas məqamlarından, elmi nailiyyətlərindən danışaraq akademikin respublikamızın həyatında taleyüklü məsələlərin həllində səylərini əsirgəməyərək öz xalqına əvəzsiz xidmətlər göstərdiyini söyləyiblər.

Sərgidə akademik Arif Paşayevin Azərbaycan və digər dillərdə çap edilmiş monoqrafiyaları, dərslikləri, dərs vəsaitləri, elmi məqalələri, beynəlxalq simpozium və konfranslardakı çıxışlarının tezisləri, müəlliflik şəhadətnamələri və ixtira patentləri haqqında yazılar, həmçinin alimin elmi, pedaqoji, ictimai fəaliyyəti haqqında 300-dən artıq ədəbiyyat nümayiş edilir.

Sərgi on gün davam edəcək.

# Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avropa İttifaqının genişlənmə danışıqları və Avropa qonşuluq siyasəti üzrə komissarı Yohannes Han ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, energetika naziri Pərviz Şahbazovun da iştirak etdiyi görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə mövcud olan əməkdaşlıq məsələləri müzakirə edilib.

Söhbət zamanı tərəflər Azərbaycan və Avropa İttifaqı arasındakı strateji tərəfdaşlığın hüquqi əsasını təşkil edəcək yeni saziş layihəsi üzrə aparılan danışıqlara toxunublar. Bu xüsusda, danışıqların yekunlaşmasının əhəmiyyəti qeyd edilib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqların cari vəziyyəti haqqında Aİ komissarına məlumat verən Elmar Məmmədyarov münaqişənin həllinin regionda inkişaf üçün şərait yaradacağını və rifah naminə sülhü təmin edəcəyini vurğulayıb.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində qarşılıqlı faydalı və strateji əməkdaşlıq məsələləri müzakirə edilib. Energetika naziri Pərviz Şahbazov komissar Yohannes Han ilə enerji sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri ətrafında faydalı fikir mübadiləsi aparıb.

# General-leytenant Ziya Yusifzadənin 90 illik yubileyinə həsr olunmuş xatirə tədbiri keçirilib





Fevralın 15-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində ümummilli lider Heydər Əliyevin ən yaxın silahdaşlarından və onun şanlı peşəkarlıq məktəbinin sadiq davamçılarından olan, DTX-nin ulu öndərin şərəfli adını daşıyan Akademiyasının ilk rəisi olmuş general-leytenant Ziya Yusifzadənin 90 illik yubileyi münasibətilə xatirə tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, general Ziya Yusifzadənin ailə üzvləri, təhlükəsizlik orqanlarının veteranları, DTX-nin əməkdaşları və kursantlar iştirak ediblər.

Əvvəlcə general-leytenant Ziya Yusifzadənin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Tədbirdə Azərbaycan Xüsusi Xidmət Orqanları Veteranları Birliyinin sədri Şamil Süleymanov çıxış edərək general Ziya Yusifzadə ilə bağlı xatirələrini bölüşüb. Qeyd olunub ki, dövlət təhlükəsizlik orqanlarında ümummilli lider Heydər Əliyev ilə çiyin-çiyinə xidmət etmiş Ziya Yusifzadənin mühüm tarixi dövrü əhatə edən ömür yolu, əldə etdiyi nailiyyətlər sadalamaqla bitən deyil. Bu gün onun yetirmələri, kömək və qayğı göstərdiyi kadrlar hazırda müstəqil Azərbaycanın təhlükəsizliyinə xidmət edirlər. Ziya Yusifzadə Azərbaycanın təhlükəsizlik orqanlarının peşəkarlıq tarixinə dəyərli töhfələr verən əməkdaş və rəhbərlərdən olub.

Ş.Süleymanov bildirib ki, Azərbaycanda Dövlət Təhlükəsizlik Komitəsinin sədri olduğu illər ərzində general Ziya Yusifzadə bu orqanda ulu öndər Heydər Əliyevin azərbaycanlaşdırma siyasətini uğurla davam etdirib. Həmin dövrdə çoxlu sayda savadlı, bacarıqlı azərbaycanlı gənclər təhlükəsizlik orqanlarına xidmətə qəbul edilərək keçmiş SSRİ-nin xüsusi təyinatlı ali təhsil müəssisələrinə göndərilib. Ömrünün böyük hissəsini təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş Ziya Yusifzadənin çoxillik həyat təcrübəsi ilə yanaşı, yaratmaq və qurmaq həvəsi onun mühüm sahəyə uğurlu rəhbərliyinin başlıca şərti olub.

DTX-nin Heydər Əliyev adına Akademiyasının əməliyyat işçilərinin hazırlanması fakültəsinin ilk məzunlarından olan, DTX-nin məsul əməkdaşı V.Hümbətov həmin xüsusi təyinatlı ali təhsil müəssisəsində təhlükəsizlik xidməti elminin incəliklərinin mənimsənilməsində, bu mühüm sahədə gələcək zabitlərin yetişdirilməsi kimi məsuliyyətli vəzifənin həyata keçirilməsində general Ziya Yusifzadənin xatirələrdə silinməz və fədakar rolu barədə danışaraq deyib: “General Ziya Yusifzadənin bu təhsil ocağında ən mühüm xidmətləri sırasında ulu öndər Heydər Əliyevin vətənpərvərlik və peşəkarlıq irsinin aşılanması, gənc nəslin təlim-tərbiyəsi işində bunun əsas meyar kimi təlqin olunması dururdu. O, bu işi ən çox mənəvi haqqı olan insanlardan biri, ulu öndərimizin sadiq silahdaşı kimi həm də çox böyük məmnuniyyət hissi və həvəslə yerinə yetirirdi. Ziya müəllim kursantlara ulu öndərin yolunu, azərbaycançılıq ideologiyasını dərindən öyrədir, onların vətənə, xalqa, torpağa sədaqət ruhunda, savadlı, bacarıqlı və geniş dünyagörüşünə malik zabit kimi yetişmələri üçün böyük səylər göstərirdi”.

General Ziya Yusifzadənin kursantlarla görüşlərində daim dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xüsusi xidmət orqanlarının milliləşdirilməsi istiqamətində gördüyü işlərdən, böyük peşəkarlıqla həyata keçirdiyi əməliyyat oyunlarından bəhs edərək kursantların bu peşəyə marağını və sevgisini daha da artırdığını vurğulayan DTX-nin məsul əməkdaşı deyib: “Ziya müəllim çıxışlarında hər zaman bildirirdi ki, əməliyyat işçisi soyuq düşüncəli, ürəyi isti, əlləri təmiz olmalıdır. O, kursantların mənəvi-əxlaqi keyfiyyətlərinin yüksəldilməsinə xüsusi diqqət yetirir, onları gələcəkdə ulu öndər yolunun davamçısı kimi görür və gənclərə bir rəis kimi deyil, həm də bir valideyn, ata kimi qayğı göstərirdi. Ulu öndər Heydər Əliyevin dövlətçilik, vətənpərvərlik, azərbaycançılıq irsinə sədaqət ruhunda formalaşmağımızı bizə məhz unudulmaz pedaqoq, peşəkar hərbçi və sözün əsl mənasında, böyük insan Ziya Yusifzadə aşılayıb”.

General-leytenant Ziya Yusifzadənin qızı, tarix elmləri doktoru, professor Sevinc Yusifzadə atasının 86 illik ömrünün 60 ilini dövlət təhlükəsizliyi orqanlarında xidmətə həsr etdiyini vurğulayaraq deyib: “O, işini çox sevir, Azərbaycanın təhlükəsizliyinin təmin olunması yolunda yorulmadan işləyirdi. Atam ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yüksək vəzifələrdə xidmət etsə də, heç vaxt öz işi barədə danışmağı sevməzdi. Biz onun fəaliyyətindən, gördüyü işlərdən mətbuatdan öyrənə bildik. Onda gördük ki, atam dövlətimizin təhlükəsizliyi üçün necə böyük işlər görüb”.

1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində ulu öndər Heydər Əliyevin sovet rəhbərliyindən istefa verməsindən sonra vaxtilə onunla çiyin-çiyinə çalışan şəxslərin də vəzifədən azad edildiklərini xatırladan S.Yusifzadə bildirib: “1987-1993-cü illər ölkəmizin tarixində çətin dövr idi. Bu illərdə ulu öndər Heydər Əliyevə sadiq digər şəxslər kimi, atam da vəzifədən uzaqlaşdırıldı. Lakin 1993-cü ildə ümummilli lider Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra ölkəmiz inkişaf yoluna qədəm qoydu. Bundan sonra atamın da həyatında yeni dövr başladı. Atam həyatının son illərini xüsusi xidmət orqanlarında çalışacaq kadrlar yetişdirən, dövlət başçısı möhtərəm Prezident cənab İlham Əliyevin diqqət və qayğısını əsirgəmədiyi akademiyaya sərf etdi. O, son dərəcə məsuliyyətli insan olmaqla yanaşı, gözəl ata, diqqətli və qayğıkeş valideyn, əsl vətəndaş idi”.

Sevinc Yusifzadə atasının 90 illik yubileyinin yüksək səviyyədə qeyd olunması və xatirəsinin əziz tutulmasına görə ailə üzvləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və DTX rəhbərliyinə təşəkkürünü bildirib.

Tədbirdə xüsusi vurğulanıb ki, bu ilin mart ayında Azərbaycan təhlükəsizlik orqanlarının 100 illiyidir. General-leytenant Ziya Yusifzadənin də 90 illiyinin bu ərəfəyə təsadüf etməsi rəmzi məna daşıyır. Ümummilli lider Heydər Əliyevin peşəkarlıq məktəbinin görkəmli nümayəndəsi, ömrünün böyük hissəsini təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş Ziya Yusifzadə onu tanıyanların qəlbində daim yaşayacaq.

# Bundestaqın üzvü Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti barədə məlumatlandırılıb



Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyada səfərdə olan xarici işlər naziri Elmar Məmmədyarov Bundestaqın xarici siyasət məsələləri üzrə komissiyanın üzvü və CDU/CSU (Xristian Demokratlar və Xristian Sosialistlər İttifaqı) parlament qrupunun sədr müavini Yohan Vadeful ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tərəflər Azərbaycan və Almaniya arasında mövcud olan əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparıblar. Görüş zamanı bölgədə Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng nəqliyyat və infrastruktur layihələri müzakirə edilib. Bölgədə dayanıqlı inkişafın və rifahın təmin olunması baxımından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin önəmi vurğulanıb. Elmar Məmmədyarov münaqişənin həlli üzrə danışıqların hazırkı vəziyyəti barədə Bundestaqın üzvünə məlumat verib.

Tərəflər, həmçinin regional, qlobal təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Azərbaycanın enerji daşıyıcılarının Ukraynaya nəqli imkanları müzakirə edilib



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ukraynalı həmkarı Pavlo Klimkin ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, energetika naziri Pərviz Şahbazovun da iştirak etdiyi görüşdə tərəflər iki ölkə arasında mövcud olan əməkdaşlığın inkişafından məmnunluqlarını ifadə ediblər.

Söhbət zamanı, həmçinin Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm infrastruktur layihələri haqqında fikir mübadiləsi aparılıb. Bu xüsusda, Azərbaycanın enerji daşıyıcılarının Ukraynaya nəqli imkanları müzakirə edilib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# ABŞ-ın Avropa Komandanlığının təmsilçiləri FHN-in qurumlarında görüşlər keçiriblər

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mülki müdafiə qoşunlarında və “İzotop” xüsusi kombinatında ABŞ-ın Avropa Komandanlığının və Bakıdakı səfirliyinin nümayəndələri ilə görüşlər keçirilib.



Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşlərin əsas məqsədi FHN-in aidiyyəti qurumlarının kimyəvi, bioloji, radioloji və nüvə insidentlərinə cavab tədbirləri barədə müzakirələrin aparılması, təlim və avadanlığa ehtiyacların müəyyənləşdirilməsi, həmçinin bu istiqamətdə növbəti beş il üçün iş planının hazırlanması olub.

Görüşlərdə nazirliyin Mülki müdafiə qoşunlarının və “İzotop” xüsusi kombinatının fəaliyyət istiqamətləri və iş prinsipləri, strukturu, həmçinin ölkəmizdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlər barədə qonaqlara ətraflı məlumat verilib. Bununla yanaşı, ABŞ-ın müvafiq dövlət qurumları ilə əlaqələrin daha da genişləndirilməsi, təcrübə mübadiləsinin təşkili məsələləri müzakirə edilib.

Qonaqlar aidiyyəti qurumlar arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar. Həmçinin əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsinin təşkili, təlimlərin keçirilməsi, müvafiq avadanlığın nazirliyə təqdim edilməsinin mümkünlüyü diqqətə çatdırılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Buzovnadakı psixonevroloji sosial xidmət müəssisəsinin yenidənqurmadan sonra açılışı olub

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib







Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 15-də paytaxtın Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsinin binasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı psixonevroloji sosial xidmət müəssisəsi 1974-cü ildə yaradılıb. 2018-ci ildən başlayaraq Heydər Əliyev Fondu tərəfindən bu müəssisədə əsaslı yenidənqurma işləri aparılıb.

Yaradılan şəraitlə tanış olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya məlumat verildi ki, yenidənqurma işlərindən sonra burada yaşayanların sağlamlığı və rahatlığı üçün müasir standartlara uyğun şərait yaradılıb. 217 çarpayılıq müəssisədə akt zalı, kinoteatr, kitabxana, arxiv, sakinlərin qidalanması üçün yeməkxanalar, eləcə də mərkəzləşmiş mətbəx, asudə vaxtın təşkili və istirahət guşələri, izolyasiya və tibb otaqları yaradılıb, mebel və avadanlıqlarla təchiz edilib. Müəssisə əlilliyi olan şəxsləri qəbul edərək münasib yaşayış şəraiti ilə təmin etmək, abilitasiya və reabilitasiya xidmətlərini həyata keçirmək üzrə fəaliyyət göstərir. Buraya sosial xidmətə ehtiyacı olan psixotik simptomatika mərhələsinə çatmayan şəxslər qəbul edilir.





Ölkəmizdə sağlamlıq imkanları məhdud olan, xüsusi qayğıya ehtiyac duyan şəxslərin tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət bu qəbildən olan şəxslərin çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət və texniki-bərpa təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Bu müəssisədə yaradılan şərait bir daha sübut edir ki, dövlət səviyyəsində bu istiqamətdə reallaşan tədbirlərə Heydər Əliyev Fondunun da xüsusi töhfəsi var. Bu cür layihələrin icrası həm də onu göstərir ki, nəcib təşəbbüsləri və layihələri ilə seçilən Heydər Əliyev Fondunun xüsusi qayğıya ehtiyacı olanların sosial məsələlərinin həlli, onların müalicə və reabilitasiya işinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər davamlı xarakter alıb.

Müəssisənin həyətində abadlıq işləri aparılıb, ərazi yaşıllaşdırılıb, müxtəlif növ ağaclar əkilib, istirahət guşələri yaradılıb.

Sonda xatirə şəkli çəkdirildi.

# "Toplan" sahibsiz itlərə qayğı mərkəzinin növbəti hissəsinin təməli qoyulub





Heydər Əliyev Fondunun və Bakı Şəhər İcra Hakimiyyətinin sahibsiz itlərlə işin təkmilləşdirilməsi üzrə birgə layihəsi çərçivəsində paytaxtın Balaxanı qəsəbəsində yaradılan "Toplan" sahibsiz itlərə qayğı mərkəzinin fevralın 15-də açılışı olub.





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya məlumat verildi ki, Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Təsərrüfat Kommunal Departamentinin sanitariya və texniki təmizlik idarəsinin ərazisində yerləşən mərkəzdə yenidənqurma işlərinə 2018-ci ilin oktyabr ayında başlanılıb. Ərazisi 2500 kvadratmetrə yaxın olan mərkəz üç inzibati-təsərrüfat binasından ibarətdir.

Leyla Əliyeva mərkəzlə tanışlıq zamanı itlərin saxlanması şəraitinə baxdı. Bildirildi ki, burada itlərin saxlanılması üçün xüsusi yerlər - volyerlər, karantin-reabilitasiya qəfəsləri yaradılıb. Ərazi abadlaşdırılıb, işıqlandırma və havalandırma sistemləri qurulub. Qurumun əməkdaşları Bakı ərazisində sahibsiz itləri toplayaraq mərkəzə təhvil verəcəklər. Burada həmin heyvanlar peyvəndlənəcək, reproduktiv fəaliyyətlərinin dayandırılması məqsədilə müvafiq əməliyyat aparılacaq. Hər bir it çiplə təmin olunacaq. Yardım göstərildikdən sonra itlər yenidən tutulduqları əraziyə buraxılacaqlar. "Toplan" mərkəzinin baytar bloku müayinələrin aparılması, sterilizasiya, müalicə və heyvanlara mikroçipin yerləşdirilməsi üçün müasir tibbi avadanlıq və preparatlarla təchiz edilib. Həmçinin burada əməliyyata hazırlıq, əməliyyat, müayinə, ordinator, baytarlıq preparatlarının saxlanması otaqları var. Sahibsiz itlərin daşınması və təcili tibbi yardım üçün avtomobillərlə təchiz olunan mərkəz həftə ərzində bütün zəruri prosedurlardan keçirilmək şərti ilə 30-50 it qəbul etmək gücündədir. Buraya daxil olmuş sahibsiz itlərin mərkəzləşdirilmiş qeydiyyatı sistemi də yaradılıb. Heyvanın tutulduğu tarix və ünvan, vəziyyəti, həyata keçirilmiş tibbi yardımlar və mikroçipin nömrəsi xüsusi informasiya bazasına daxil edilir. Sərbəst buraxılan və sahiblərini tapan itlər barədə də bazaya müvafiq məlumatlar yerləşdirilir. Mərkəzin əməkdaşları baytarlar, itlərin toplanması ilə məşğul olan şəxslər və digər personal üçün xarici mütəxəssislərin iştirakı ilə təlimlər keçirilib.

Sonra "Toplan" mərkəzinin növbəti hissəsinin təməli qoyuldu.

Bildirildi ki, sonrakı mərhələdə bir neçə təsərrüfat binası və 80-ə yaxın itin saxlanılması üçün xüsusi yer - volyer və karantin-reabilitasiya qəfəsləri yaradılacaq.

Qeyd edək ki, 2018-ci ildən başlanan layihə sakinlərin təhlükəsizliyinin təmin edilməsi, sahibsiz heyvanlara qayğı göstərilməsi, həmçinin cəmiyyətin onlara qarşı münasibətinin dəyişdirilməsi məqsədi daşıyır. Layihə çərçivəsində, eyni zamanda, müxtəlif maarifləndirmə işləri aparılır. Həmçinin layihə barədə mərkəzin internet saytı, sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat əldə etmək mümkündür.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Neftçala rayonunda Neftçala, Salyan, Biləsuvar, Cəlilabad, Cəbrayıl rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Qəbul zamanı ayrı-ayrı sosial təminat növlərinə hüququn müəyyən olunması, tibbi-sosial reabilitasiya, məşğulluq, aktiv məşğulluq tədbirlərinə və özünüməşğulluq proqramına cəlbolunma və s. məsələlərlə bağlı müraciətlər dinlənilib. Müraciətlərdən sorğu xarakterli olanlarla bağlı hüquqi izahatlar verilib. Digər müraciətlərdə ifadə olunan məsələlər nazirliyin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə yerindəcə araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülməsi üçün Sahil Babayev tərəfindən aidiyyəti tapşırıqlar verilib. Eləcə də bir sıra vətəndaşların aktiv məşğulluq tədbirlərinə, sosial xidmətlərə, potensial imkanları nəzərə alınmaqla özünüməşğulluq proqramına cəlb olunması, reabilitasiya xidmətləri ilə təminatı tapşırılıb.

***

Fevralın 15-də ədliyyə naziri Fikrət Məmmədov Xaçmaz Regional Ədliyyə İdarəsində Xaçmaz, Quba, Qusar və digər rayonlardan olan vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının işi ilə tanış olub, bu sahədə fəaliyyətə cəlb olunmuş gənc könüllülərlə görüşüb, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

***

Fevralın 15-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Beyləqan şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Beyləqan, İmişli, Zərdab, Füzuli, Xocavənd, Laçın, Ağcabədi, Ağdam və Bərdə rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul zamanı meşələrin qorunması, biomüxtəliflik, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, ətraf mühitin monitorinqi və s. məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

***

Direktorlar Şurasının sədri Məleykə Abbaszadə fevralın 15-də Naftalan şəhərində vətəndaşları qəbul edib.

Qəbulda Naftalan şəhərinin sakinləri ilə yanaşı, Mingəçevir şəhərinin, Yevlax, Ağdaş, Goranboy rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Görüşdə əsasən ali təhsil müəssisələrinin magistraturalarına və rezidenturaya qəbul, buraxılış imtahanları və ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının kolleclərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

*AZƏRTAC*

# Sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması daha da asanlaşıb

## Prosedurlar 2-yə, qoşulma müddəti 20 günə endirilib



"Azərişıq" ASC mətbuat nümayəndələrinin iştirakı ilə 1 saylı "ASAN Kommunal"a mediatur təşkil edib. "Azərişıq" ASC-nin Perspektiv inkişaf və "ASAN xidmət"lə iş idarəsinin rəisi Elsevər Rüstəmli bildirib ki, Prezident İlham Əliyev tərəfindən ötən il dekabrın 25-də "Sahibkarlara mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Fərmana edilən dəyişikliklərdən sonra prosedurların sayı 2-yə, elektrik şəbəkəsinə qoşulma müddəti 20 günə endirilib. Onun sözlərinə görə, indi tələbatı 150 kilovata qədər olan obyektini elektrik şəbəkəsinə qoşdurmaq istəyən sahibkarın KOB evləri, "ASAN Kommunal" və "ASAN xidmət" mərkəzlərinə müraciət etməsi kifayətdir. "Mərkəzdə sahibkar sənədlərini təqdim edir və kVt-a uyğun olaraq ödənişini edib gedir. Dərhal elektron xəritə üzərindən obyektin yeri, ona ən yaxın məsafədə yerləşən güc mərkəzi təyin olunur və xəritədən çıxarış ASAN-portala yerləşdirilir. Mərkəzin müvafiq qurumların nümayəndələrindən ibarət Texniki Şura üzvləri 10 gün müddətində xəttin trassasını, adiyyəti qurumlarla razılaşdırılmaları, texniki şərti və layihə sənədlərinin hazırlanmasını təşkil edir. Növbəti 10 gün müddətində isə Enerji Təchizat Müəssisəsi elektrik quraşdırma işlərini həyata keçirir, sayğac qoyulur, texniki şərt, layihə, akt, müqavilə paketi ikinci prosedur olaraq sahibkara təqdim olunur. Beləliklə, birinci dəfə "ASAN xidmət"ə gələn sahibkarla, ikinci dəfə onun obyektində təmas qurulur. Bununla da sahibkarla iki təmas olmaqla cəmi 20 gün müddətinə onun obyektinə işıq verilir".

*"Azərbaycan"*

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Bala Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Sarıcalı, Yusifcanlı kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.




# ŞEİR USTADI - ƏQİDƏ ŞƏHİDİ

## İmadəddin Nəsimi Azərbaycan klassik poeziyasının və ədəbi dili tarixinin parlaq simasıdır

**Azərbaycan dünya ədəbiyyatı xəzinəsinə bir çox görkəmli şəxsiyyətlər, böyük söz ustaları, nadir düha sahibləri bəxş etmişdir: Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli...**

Azərbaycan klassik ədəbiyyatının nəhəng simalarından, böyük şəxsiyyətlərindən olan bu şairlərin hər biri yaratdıqları əsərlərinin yüksək bəşəri dəyərlərinə, bənzərsiz poetik özəlliklərinə və işıqlı fikirlərinə görə bütün dövrlərin zamandaşları olan, sağlıqlarında özlərinə heykəl ucaldan əbədiyaşar sənətkarlardır. Azərbaycan ədəbiyyatının bu parlaq simaları sırasında Seyid İmadəddin Nəsiminin özəl yeri və məqamı, xüsusi çəkisi və sanbalı vardır.

Bu, bir danılmaz həqiqətdir ki, Nəsimi dedikdə ilk növbədə öz əqidəsi və amalından dönməyən, bu yolda canından keçməyə hazır olan yenilməz bir söz ustası yada düşür, dar ağacından asıldıqda belə başını dik tutan, məğrurcasına dayanan şəhid şair göz önünə gəlir.

Seyid İmadəddin Nəsimi Azərbaycan klassik poeziyasını həm məzmun və ideya, həm də yeni janrlarla zənginləşdirən, ona yeni nəfəs gətirən novator bir şair kimi tanınır. Mütəfəkkir şairin ədəbiyyat tariximizə gətirdiyi yeniliklər sırasında birinci olaraq qüdrətli sənətkarın anadilli poeziyamızda fəlsəfi qəzəlin, xüsusilə də hürufiliyin təbliğinə həsr olunmuş şeirlərin kamil nümunələrinin yaradıcısı kimi qeyd etməliyik. Nəsimiyə qədər anadilli ədəbiyyatımızın İzzəddin Həsənoğlu və Qazi Bürhanəddin kimi tanınmış nümayəndələri də fəlsəfi məzmunlu qəzəllər yazmışlar. Lakin bu şeirlər istər insana böyük dəyər verən yüksək humanist fikirlərinə, istər poetik keyfiyyətlərinə, istərsə də dil-üslub xüsusiyyətlərinə görə Nəsiminin fəlsəfi qəzəlləri səviyyəsinə çatacaq dərəcədə deyil.

Nəsiminin Azərbaycan ədəbiyyatı, bütövlükdə türk dünyası ədəbiyyatına gətirdiyi daha bir yeniliyi türk əruzunu formalaşdırması, onu daha da təkmilləşdirməsidir. Nəsimi yaradıcılığında əsas yer tutan qəzəl janrına dair nümunələr əruz vəzninin müxtəlif bəhrlərində (rəməl, həzəc, rəcəz, mizare, xəfif, mütəqarib və s.) yazılmışdır. Nəsiminin anadilli şeirləri şəkil və janr baxımından da çoxçeşidli rəngarəngliyi ilə seçilir ki, bu cəhətdən də böyük şair sələflərindən fərqlənir. Belə ki, mütəfəkkir şair anadilli Azərbaycan ədəbiyyatında məsnəvi şəklində, eləcə də mürəbbe, müstəzad və təcribənd janrlarında ilk dəfə qələmini sınayan söz ustasıdır. İzzəddin Həsənoğlu və Qazi Bürhanəddin yaradıcılığında sözügedən janrlara təsadüf edilmir ki, (??) bu cəhət də Nəsimiyə Azərbaycan ədəbiyyatında yenilikçi, novator bir şair statusunu qazandırmış olur. Bundan əlavə, faktlara söykənərək demək olar ki, Nəsimi poetik əsərlərini Azərbaycan türkcəsi ilə yanaşı, fars və ərəb dillərində də yazan ilk Azərbaycan şairidir. Türkiyə araşdırıcıları tərəfindən əlyazmaları aşkara çıxarılan, lakin indiyədək nəşr edilməyən və Nəsimiyə aid edilən "Müqəddimətül-həqayiq" adlı türkcə nəsr əsərini də nəzərə alsaq, böyük şairimiz həm nəzmlə, həm də nəsrlə ana dilində əsər yazmış ilk Azərbaycan müəllifi sayıla bilər.

İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatında daha bir "ilk"ə imza atmış şairdir. Belə ki, İmadəddin Nəsimi anadilli lirik şeirləri ilə Yaxın və Orta Şərqdə ədəbi məktəb yaradan ilk Azərbaycan şairidir. Amalı, əqidəsi yolunda şəhidlik zirvəsinə yüksəldikdən az sonra Azərbaycan şairləri ilə yanaşı, indiki Türkiyə, İran, Türkmənistan, Özbəkistan, Krım torpaqlarında yaşayıb-yaratmış bir sıra söz ustaları Nəsimi yaradıcılığının güclü təsiri altında olmuş, şeirlərinə nəzirələr və təxmislər yazmışlar. Onların sırasında XV-XVI əsrlər Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən Nemətullah Kişvəri, Həbibi və Füzulinin, XV yüzillikdə yaşayıb yaratmış Osmanlı şairlərindən Əhməd Paşa və Nicatinin, yenə həmin yüzilliyin cağatay söz ustalarından Lütfi, Səkkaki və Əlişir Nəvainin adlarını çəkmək olar. Maraqlıdır ki, Cahanşah Həqiqi (Qaraqoyunlu), Şah İsmayıl Xətai (Səfəvi) və Sultan Süleyman Qanuni (Osmanlı Türkiyəsi) kimi hökmdar şairlər də əsərlərində Nəsiminin adını ehtiramla yad etmiş və qəzəllərinə nəzirələr yazmışlar.

Nəsimi ana dilində qələmə aldığı lirik şeirləri ilə ədəbiyyat tariximizə əbədi möhürünü vuran, Yaxın və Orta Şərqdə böyük şöhrət qazanan, ədəbi məktəb yaradan mütəfəkkir şair olmaqla yanaşı, eyni zamanda milli varlığımız olan ədəbi dilimizin zənginləşməsi və təkmilləşməsində misilsiz xidmətləri olan qüdrətli söz ustadı kimi də tanınır. Nəsiminin yüksək poetik keyfiyyətləri ilə seçilən cilalanmış şeir dili XIV əsr Azərbaycan ədəbi dilinin ən mükəmməl nümunəsidir. Şairin bənzərsiz şeir dili Azərbaycan ədəbi dilinin lüğət tərkibini incə məna çalarlı bir sıra yeni söz və ifadələrlə daha da zənginləşdirdi, ədəbi dilimizi öz tarixi inkişafının ən mükəmməl mərhələsinə, zirvə nöqtəsinə qaldırdı. Azərbaycan ədəbi dilinin parlaq təzahürü olan Nəsiminin şeir dili zəngin semantik çalarlı, dərin məna tutumlu poetik bir dildir. Akademik Tofiq Hacıyevin yazdığı kimi, Nəsimi "həm ana dilinin bütün leksik-semantik imkanlarını üzə çıxardı, xalq dilinin idrak potensialını aşkar etdi, həm də ərəb və fars dillərindən zərurət həddində məhz ehtiyacı olan qədər, ifrata varmadan material mənimsədi, bununla da Azərbaycan ədəbi dilinin fəlsəfi, elmi ifadəçi səviyyəsini təmin etdi. Nəsimi ədəbi dilin qrammatik quruluşca da müəyyən dərəcə cilalanmasına nail oldu" (Tofiq Hacıyev. Seçilmiş əsərləri, I cild, I hissə Bakı, 2016, səh.199). Ümumiyyətlə, Azərbaycan ədəbi dili tarixində XIV yüzillik istər rəngarəng dil və üslub xüsusiyyətləri, istərsə də bütövlükdə mükəmməlliyi və kamilliyi baxımından xüsusi bir mərhələni təşkil edir və onun ən yüksək zirvəsində, ən uca məqamında Nəsimi dayanır. Cəsarətlə demək olar ki, orta əsrlər Azərbaycan türkcəsinin şirinliyi və məlahətliliyi, oynaqlığı və axıcılığı, əzəməti və coşqunluğu ilk dəfə məhz Nəsiminin anadilli şeirlərinin timsalında tam dolğunluğu və mükəmməlliyi ilə yazılı ədəbi dil səviyyəsində parlaq şəkildə özünü göstərir.

Nəsiminin anadilli şeirləri, xüsusilə də qəzəlləri ilk növbədə milli sözlərin bolluğu, hər bir misra və beytin özünəməxsus oynaqlığı və melodikliyi, ahəngdarlığı və ritmikliyi, bir sözlə, musiqililiyi ilə seçilir, oxucuya, dinləyiciyə yüksək estetik zövq verir, onun könlünü, ruhunu oxşayır. Bu da təsadüfi deyil. Məsələ burasındadır ki, Nəsimi hürufilik məzmunu daşıyan qəzəllərinin bir qismini bilavasitə səma məclislərində dərvişlər tərəfindən oxunmaq məqsədilə qələmə almışdır. Məhz bu səbəbdən də



üsyankar şairin qəzəlləri müəyyən mənada dərvişlərə xas olan özəl bir melodiya və oynaq musiqi havaları üzərində köklənmişdir. Bütövlükdə götürdükdə, Nəsiminin qəzəlləri həm dilinin sadəliyi və axıcılığı, həm də saflığı və təmizliyi ilə seçilir ki, bu da şairin xalq ruhuna, canlı ümumxalq danışıq dilinə söykənməsi, bu tükənməz qaynaqdan uğurla bəhrələnməsi ilə bağlıdır. Şairin aşağıdakı məşhur misralarında bunu əyani şəkildə görmək olar:

Düşdü yenə dəli könül gözlərinin xəyalinə,
Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə?
Al ilə ala gözlərin aldadı aldı könlümü,
Alini gör nə al edər, kimsə irişməz alinə.
Qiymətini dodağının dəgmə xəsisə sorma kim,
Mən bilirəm ki, can ilə susamışam zülalinə.
Gözlərinə əsir olan halımı oldur anlayan,
Kim ki bu halə düşmədi, qoy vara kəndü halinə.

Şairin bu qəzəlinin ilk dörd misrasında *fikir* və *xəyal* sözləri istisna olmaqla bütün sözlər milli sözlərimizdir, türkmənşəli leksemlərdir. Birinci beytdə böyük şairin qafiyə yerində işlətdiyi *xəyalinə* və *xəyali nə* cinas qafiyələri diqqətçəkiciliyi ilə cəlb edir. İkinci beyt isə ilk növbədə səslərin xüsusi bir ahəngi, özəlliklə də "a" və "l" səslərinin yaratdığı assonas və alliterasiya ilə diqqəti çəkir və yüksək poetikliyi, bənzərsiz obrazlılığı ilə yadda qalır. Böyük şairin bu beytdə "al" sözünü böyük məharət və yüksək ustalıqla həm "hiylə" (birinci misrada), həm də "qırmızı" (ikinci misrada) işlətməsini də ayrıca olaraq qeyd etmək lazımdır.

Nümunədə işlənmiş "könül düşmək", "könül almaq", "can ilə susamaq", "gözə əsir olmaq", "hala düşmək", "kəndü halına varmaq" kimi deyim və ifadələr isə Nəsiminin canlı xalq danışıq dilinə yetərincə bələdliyindən və bu tükənməz xəzinədən uğurla bəhrələnməsindən xəbər verir.

Nəsiminin aşağıdakı misraları da dilinin sadəliyi və saflığı, eləcə də oynaqlığı və ahəngdarlığı ilə diqqəti çəkir:

Yüzüni məndən nihan etmək dilərsən, etməgil,
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil.

Bu beyt də ilk növbədə axıcılığı, yüksək ritmi və musiqi ahəngdarlığı ilə seçilir. Nəsimi burada "etmək" sözünü həm təsdiqdə, həm də inkarda, özü də əmr şəklində işlətməklə beytdə yüksək ekspressivlik yaradır, oxucuya böyük estetik zövq duyğuları aşılayır.

Nəsiminin şeir dilinin başlıca qaynağı sadəliyi və yüksək obrazlılığı ilə seçilən ümumxalq danışıq dilidir. 600 ildən də çox bir müddət öncə yazılan bu şeirlərdə xalq ifadə və sözlərinin işlənməsi bugünkü oxucunu heyran etməyə bilmir.

İmadəddin Nəsiminin Azərbaycan bədii-fəlsəfi fikir və ədəbi dil tarixində tutduğu bu cür yüksək məqama görədir ki, böyük şair və mütəfəkkirin ədəbi irsi Azərbaycanda ən çox araşdırılan və nəşr edilən klassik sənətkarlar sırasında ilkin yerlərdən birini tutur. Tanınmış mətnşünas Salman Mümtaz 1926-cı ildə Azərbaycanda ilk dəfə olaraq Nəsiminin anadilli şeirlərini toplayaraq ərəb qrafikası ilə nəşrə hazırlamışdır. 1962-ci ildə isə görkəmli ədəbiyyatşünas Mirzağa Quluzadə böyük şairin "Seçilmiş əsərləri"ni nəşr etdirmişdir. Bununla belə, Nəsimi irsinin tədqiqi və nəşri sahəsində dönüş mərhələsi bilavasitə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə 1973-cü ildə Nəsiminin 600 illik yubileyi nüfuzlu beynəlxalq təşkilat olan UNESCO-nun tədbirlər siyahısına daxil edilmiş və həmin il geniş şəkildə qeyd olunmuşdur. Bu möhtəşəm yubiley tədbirləri çərçivəsində 1973-cü ildə mətnşünas-dilçi alim Cahangir Qəhrəmanov tərəfindən hazırlanmış Nəsiminin anadilli əsərlərinin elmi-tənqidi mətni ərəb qrafikası ilə nəşr edildi. Azərbaycanda İmadəddin Nəsimi irsinin araşdırılması sahəsində mühüm elmi nailiyyətlərdən sayılan bu dəyərli elmi-tənqidi mətnin hazırlanmasında mütəfəkkir şairin anadilli əsərlərinin 5 əlyazmasından və iki əski nəşrindən istifadə olunmuşdur. Qeyd edək ki, Nəsimi əsərlərinin sözügedən elmi-tənqidi mətni həm şairin ədəbi irsinin tədqiqi istiqamətində gələcək araşdırmalar üçün geniş yol acdı, başlıca qaynaq rolunu oynadı, həm də əsərlərinin müasir elmi nəşrləri işini asanlaşdırdı. Çünki görkəmli rus şərqşünası Yevgeni Bertelsin qeyd etdiyi kimi, hər hansı bir şairin əsərlərinin elmi-tənqidi mətni olmadan onun həyatı və dünyagörüşü, eləcə də yaradıcılığı haqqında dəqiq və düzgün fikir söyləmək çətindir. Onu da qeyd edək ki, professor Cahangir Qəhrəmanov bu sanballı işə girişməzdən öncə 1970-ci ildə Nəsiminin dili mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və həmin il "Nəsimi "Divanı"nın leksikası" adlı dəyərli kitabını nəşr etdirmişdir. Adı çəkilən dəyərli kitab Azərbaycanda Nəsimi irsinin ilkin araşdırınmalardan biri kimi böyük əhəmiyyət daşıyır. Yeri gəlmişkən onu da əlavə edək ki, C.Qəhrəmanovun bu kitabı bir sıra məşhur türkoloqların (məsələn, Əmir Nəcibin) tədqiqatlarında başlıca qaynaqlardan biri kimi yer alır.

Yuxarıda qeyd olunduğu kimi, İmadəddin Nəsiminin Azərbaycan ədəbi dilinin inkişafında və zənginləşməsində misilsiz xidmətləri olmuşdur. Məhz bu mühüm və əhəmiyyətli amili nəzərə alaraq 1973-cü ildə Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutuna Nəsiminin adı verilmişdir.

Keçən əsrin müxtəlif illərində və yaşadığımız yüzilliyin başlanğıcında tanınmış Azərbaycan ədəbiyyatşünaslarından akademiklər Həmid Araslı, Bəkir Nəbiyev və Teymur Kərimli, AMEA-nın müxbir üzvü Əlyar Səfərli, professorlar Mirzağa Quluzadə və Qəzənfər Paşayev, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyeva, dilçi alimlərdən Vəliyəddin Əliyev, Elçin Məmmədov, Qüdsiyyə Qənbərova, Türkan Əsgərova da Nəsimi irsini müxtəlif istiqamətlərdən araşdırmışlar. Nəsiminin fəlsəfi görüşlərini isə fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə hürufilik kontekstində mükəmməl bir şəkildə tədqiq etmişdir. Azərbaycanın xalq şairləri Bəxtiyar Vahabzadə, Rəsul Rza, Qabil, Nəbi Xəzri və xalq yazıçısı İsa Hüseynovun bədii əsərlərində İmadəddin Nəsiminin ölməz obrazı yaradılmışdır. Keçən əsrin 70-ci illərində şair haqqında bədii filmin çəkilməsi, Bakının mərkəzində möhtəşəm abidəsinin ucaldılması da Nəsimi irsinə ulu öndər tərəfindən göstərilən dövlət qayğısının bariz nümunələri sırasındadır.

Ulu öndərin layiqli varisi Prezident İlham Əliyevin dövlət siyasətində də mədəniyyət və ədəbiyyata, eləcə də dövlət atributlarından olan Azərbaycan dilinə böyük diqqət və qayğı göstərilir. Məhz bu qayğının nəticəsidir ki, ölkə Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən Nəsiminin iki cildlik "Seçilmiş əsərləri" kütləvi tirajla nəşr olunmuşdur. Prezident İlham Əliyevin təşəbbüsü və qayğısı ilə 2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında İmadəddin Nəsiminin vəfatının 600 illiyi qeyd olunmuşdur.

2018-ci ilin sentyabr ayında Azərbaycanda ilk dəfə olaraq "Nəsimi: şeir, incəsənət və mənəviyyat" festivalı keçirilmiş və bu möhtəşəm tədbir çərçivəsində Moskva Beynəlxalq Münasibətlər İnstitutunun binasında mütəfəkkir şairin büstü ucaldılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 noyabr 2018-ci ildə "Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdır. Böyük söz ustasına dövlət qayğısının və dərin ehtiramın daha bir bariz nümunəsi olan sərəncamda deyilir: "Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir". Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" 11 yanvar 2019-cu il tarixli sərəncamı da mütəfəkkir şairin Azərbaycanın ədəbi-mədəni fikir tarixində tutduğu yüksək məqama dövlət səviyyəsində böyük dəyər verildiyini açıq-aşkar şəkildə sübut edir. Bu sərəncam, eyni zamanda böyük söz ustasının bədii təfəkkürünün məhsulu olan bütün əsərlərinin müasir ədəbiyyatşünaslıq və dilçilik, şərqşünaslıq və fəlsəfə elmlərinin nailiyyətləri işığında hərtərəfli və sistemli şəkildə öyrənilməsi, bədii irsinin daha geniş miqyasda təbliği üçün geniş imkanlar açır.

İmadəddin Nəsimi irsinə dövlət səviyyəsində göstərilən bu cür yüksək diqqət və qayğı Azərbaycan alimləri qarşısında böyük şairin həyat və yaradıcılığının tədqiqi istiqamətində bir sıra vacib işlərin həyata keçirilməsini, bu sahədə mövcud olan boşluqların aradan qaldırılmasını təxirəsalınmaz bir vəzifə olaraq qoyur. Nəsimi irsinin tədqiqi və nəşri ilə bağlı görüləsi işlər sırasında ilk növbədə böyük şairin anadilli əsərlərinin latın qrafikası ilə yeni elmi-tənqidi mətninin və onun əsasında akademik nəşrinin həyata keçirilməsini qeyd etmək lazımdır. Düzdür, qeyd olunduğu kimi, professor Cahangir Qəhrəmanov bu işi 1973-cü ildə əldə olan əlyazmalar əsasında yüksək səviyyədə həyata keçirmişdir. Lakin ötən illər ərzində Nəsimi əsərlərinin dünyanın müxtəlif ölkə kitabxanalarında saxlanılan yeni və daha mötəbər əlyazma nüsxələri aşkara çıxarılmışdır. Bundan əlavə, həmin tənqidi mətn 46 il öncə ərəb qrafikası ilə hazırlanmışdır. Bütün bunları nəzərə alaraq, düşünürük ki, C.Qəhrəmanovun hazırladığı tənqidi mətni də işə cəlb etməklə Nəsimi əsərlərinin yeni elmi-tənqidi mətninin hazırlanması məqsədəuyğun olardı. Məsələ burasındadır ki, Nəsimi əsərlərinin mövcud Bakı nəşrlərində bir sıra şeirlərin fərqli variantlarına rast gəlmək mümkündür.

Məsələn, şairin "Neylərəm" rədifli məşhur qəzəlinin son beytinə diqqət yetirmək kifayətdir.Belə ki, şairin əsərlərinin müxtəlif nəşrlərində sözügedən beytin müxtəlif fərqli variantlarına rast gəlirik. C.Qəhrəmanovun tərtib etdiyi Nəsimi əsərlərinin elmi-tənqidi mətnində həmin beyt bu şəkildədir:

Dilbər aydır, ey Nəsimi, səbr qıl, etmə fəğan,
Şimdi əfğan etməsəm, danla fəğanı neylərəm.

Sözügedən tənqidi mətndə birinci misradakı *səbr qıl* sözünün bir əlyazmada *sabir ol* variantının da olması göstərilməklə yanaşı, digər bir əlyazmada ikinci misranın tamam fərqli biçimdə yer alması da diqqətə çatdırılır:

Bən bu gün səbr eyləsəm, daxi fəğanı neylərəm.

Türkiyəli nəsimişünas alim Hüseyn Ayanın tərtib etdiyi Nəsimi əsərlərinin tənqidi mətnində həmin beyt bu şəkildədir:

Ey Nəsimi neyiçün eylərsən əfğanü fiğan,
Mən bu gün səbr eyləsəm, tanla fiğanı neylərəm.

Nəsiminin 2004-cü ildə Bakıda nəşr olunmuş "Seçilmiş əsərləri"ndə isə yuxarıda verilmiş bu beytin birinci misrasındakı *"səbr qıl"* sözü *"sabir ol"* şəklindədir, ikinci misra isə Hüseyn Ayanın tərtib etdiyi mətndəki kimidir, sadəcə olaraq burada *tanla* (sabah) sözünün *danla* fonetik variantı işlənmişdir.Yeri gəlmişkən qeyd edək ki, Nəsiminin bu məşhur qəzəlinin ilk misrası mötəbər qaynaqlarda bu şəkildədir:

Dilbəra, mən səndən ayrı təndə canı neylərəm?

Bununla belə, şairin əsərlərinin adı çəkilən sonuncu mötəbər Bakı nəşrində yuxarıdakı misradakı *təndə* sözü *ömrü* şəklindədir.Fikrimizcə, misranın yuxarıda təqdim olunan variantı məntiqi baxımdan daha uğurludur.

Qeyd edək ki, bu cür misalların sayını istənilən qədər artırmaq mümkündür. Şairin əsərlərinin yeni elmi-tənqidi mətni isə, fikrimizcə, bu cür çoxvariantlılığa son qoya bilər.

Bundan əlavə Nəsiminin "Seçilmiş əsərləri"nin 2004-cü ildə hazırlanmış kütləvi nəşrində olan bəzi şeirlərə, ümumiyyətlə, şairin əsərlərinin elmi-tənqidi mətnində rast gəlmirik. Aşağıdakı mətləli qəzəl bu qəbildəndir:

Afərin olsun nigarın zülfü ilə qaşinə,
Gər macal bulsam həbibin çevriləydim başinə.

Bu qəzəlin Nəsimiyə aidliyi bir neçə cəhətdən şübhə doğurur. Birincisi, dil faktlarından çıxış edərək deyə bilərik ki, beytdəki *çevrilmək* sözünə, eləcə də onunla qoşa işlənmiş *"başinə çevrilmək"* ifadəsinə Nəsimi "Divanı"nın leksikası" kitabında, eləcə də türk dillərinin tarixinə dair məşhur qaynaqlarda rast gəlmirik. Bundan əlavə qəzəlin aşağıdakı beytində işlənmiş *"gilləmək"*(atmaq, tullamaq; diyirlətmək) sözünə istər Nəsimi leksikonunda, istərsə də digər Azərbaycan və türk yazılı abidələrində təsadüf edilmir:

Şol rəqibi görə idim çah içində bir kərə,
Gilliyəydim başınaşol səd həzaran daş yenə.

İkincisi, qəzəl aşağıdakı beytlə bitir və burada *başinə* sözü yenə də birinci beytdə olduğu kimi, qafiyə yerində işlənmişdir:

Dedilər miskin Nəsimi, doğruya zaval yoxdur,
Müddəilər qalib oldu, hazır olgil başinə.

Aydındır ki, Nəsimi kimi ustad bir şairin eyni qafiyəni qəzəlin iki müxtəlif beytində işlətməsi inandırıcı görünmür:

Üçüncüsü isə, 7 beytlik bu qəzəlin əksər beytlərində lirik qəhrəman rəqibinə açıq-aşkar bir şəkildə tükürpədici qarğış yağdırır: onu quyu içində görməyi, sonra isə ölərək qarğa-quzğuna yem olmasını arzulayır:

Ey rəqib, bir yerdə olgil ki, bulunmaz aşü su,
Qarğavü quzğun yığılsın leşinə, hey leşinə.

Bu motiv də bütövlükdə götürdükdə Nəsimi qəzəllərinin ümumi ruhuna uyğun gəlmir və qəzəlin böyük şairin qələminin məhsulu olması məsələsinə müəyyən mənada şübhə gətirir.

Qeyd edək ki, Nəsimiyə aid edilmiş bu qəzəl professor Qəzənfər Paşayevin tərtib etdiyi şairin İraq divanında yoxdur. Qəzələ görkəmli Türkiyə nəsimişünası Hüseyn Ayanın tərtib etdiyi Nəsimi divanının mükəmməl tənqidi mətnində də rast gəlmirik.Yuxarıdakı qəzəli C.Qəhrəmanov Nəsimi əsərlərinin tənqidi mətninin 3-cü cildinə daxil edərək həmin şeirin müəllifin əsərlərinin yalnız İstanbulun Bayəzid kitabxanasında saxlanılan bir əlyazma kitabında yer aldığını diqqətə çatdırır ki, bu da təbii ki, mötəbər qaynaq sayıla bilməz. Hüseyn Ayan Nəsimi əsərlərinin tənqidi mətni üçün istifadə etdiyi qaynaqlar sırasına sözügedən Bəyazid əlyazmasını daxil etməmişdir ki, bu da səbəbsiz deyil. Aydındır ki, həmin əlyazma mötəbər olsaydı, Hüseyn



Ayan onu da istifadə etdiyi əlyazmalar sırasına qoşardı.Yeri gəlmişkən qeyd edək ki, Hüseyn Ayanın Nəsimi haqqındakı dəyərli araşdırmasının və tərtib etdiyi divanın mətninin Azərbaycanda nəşrə hazırlanması böyük şairin yubileyinə dəyərli bir hədiyyə olardı.

Mütəxəssislərin yekdil fikrincə, ümumiyyətlə, hər hansı bir klassik sənətkarın əsərlərinin tarix etibarilə qədim olan əski əlyazmaları daha mötəbər və nüfuzlu mənbə sayılır. Sonrakı dövrlərə aid əlyazmalarda isə katib müdaxilələri üzündən, adətən, çoxlu sayda təhriflərə yol verilir. Məhz bu mühüm və əhəmiyyətli amili nəzərə alaraq, Nəsimi əsərlərinin yeni nəşrlərində qədim əlyazma mətnlərinə üstünlük verilməsi olduqca vacib və əhəmiyyətli bir məsələdir.

Nəsimi əsərlərinin nəşrlərində şairin dilində işlənən bəzi sözlərin müasirləşdirilməsi halları da nəzərə çarpır. Buna nümunə olaraq Nəsiminin aşağıdakı qəzəlinin ilk beytinə diqqət yetirək:

Səndən iraq, ey sənəm, şamü səhər yanaram,
Vəslini arzularam daxi betər yanaram.

Beytlə bağlı ilk növbədə onu demək lazımdır ki, qəzəlin əlyazmadakı yazı variantını əsas götürərək birinci misradakı *iraq* sözünün sonundakı "ğəyn" hərfinə əsasən bu leksik vahidi *irağ* şəklində transkripsiya etmək məqsədəuyğundur. Qeyd edək ki, professor Qəzənfər Paşayev Nəsiminin İraq divanında bu sözü doğru olaraq elə *irağ* şəklində vermişdir (İmadəddin Nəsimi. İraq divanı. Bakı, 2018, səh.178). Nəsimi divanının Bakıda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan qədim əlyazmasında da bu sözün yazılışı onun məhz *irağ* şəklində oxunmasını tələb edir. Maraqlıdır ki, görkəmli ədəbiyyatşünas akademik Həmid Araslının tərtib etdiyi Nəsimi divanında həmin qəzəlin üçüncü beytində haqqında danışdığımız söz elə *irağ* şəklindədir:

Məndən irağ olduğun bağrımı qan eylədi,
Oldu gözümdən rəvan xuni-cigər yanaram.

Nəsiminin "Seçilmiş əsərləri"nin 1985-ci il və 2005-ci il nəşrlərində isə qəzəlin istər mətlə beytində, istərsə də, üçüncü beytində bu söz *iraq* şəklindədir (Altun kitab, tərtibçi: professor Xəlil Yusifli, səh.91).

İndi isə Nəsiminin "Səndən irağ, ey sənəm..." qəzəlinin yuxarıda verdiyimiz mətlə beyti ilə bağlı daha bir mühüm və əhəmiyyətli məqama öz münasibətimizi bildirmək istəyirik. Qeyd edək ki, klassik mətnlərin transkripsiyası zamanı dil faktları ilə yanaşı, ədəbiyyat məsələlərinə, xüsusilə də poetika, vəzn və qafiyə ilə bağlı incə məqamlara da - bir sözlə, şeirin bədii imkanları və özəlliklərinə də xüsusi diqqət yetirmək olduqca mühüm və vacib məsələlər sırasındadır. Məsələyə bu mövqedən yanaşdıqda, fikrimizcə, yuxarıda verilən qəzəlin mətlə beytindəki *yanaram* və *arzularam* sözlərinin *yanərəm* və *arzulərəm* şəklində oxunuşu daha məqsədəuyğundur:

Səndən irağ, ey sənəm, şamü səhər yanərəm,
Vəslini arzulərəm, daxi betər yanərəm.

Fikrimizi əsaslandırmağa çalışaq. Birincisi, beytdə rədif kimi işlənən *yanərəm* sözünün, eləcə də ikinci misradakı *arzulərəm* lekseminin orijinalda (əlyazmada) yazılışı onların məhz bu şəkildə oxunuşunu tələb edir. İkincisi isə, bu sözlərin təqdim etdiyimiz variantda oxunuşunu qəzəldə qafiyə yerində işlənən sözlər: *səhər, betər* (əslində *bətər* olmalıdır: farsmənşəli *bədtər* (daha pis) sözünün qısaldılmış formasıdır), *qəmər, düşər, əgər* və s. tələb edir. Belə olduqda şeir səs uyarlığı, poetika baxımından daha oynaq, daha ahəngdar səslənir, xüsusi bir ritm yaradır, qulağı oxşayır və şeirin musiqililiyini, axıcılığını daha da artırmış olur. Aydınlıq üçün onu da qeyd edək ki, beytin ikinci misrasında işlənmiş *arzulər(əm)* sözü *bətər* kəlməsi ilə daxili qafiyə yaradır.

Düzdür, şairin əsərlərinin kütləvi nəşrləri mütəxəssislər üçün deyil, müasir oxucu üçün nəzərdə tutulmuşdur. Bununla belə, düşünürük ki, tarixi fonetika, tarixi dialektologiya, bütünlüklə ədəbi dil tarixi baxımından Nəsiminin əsərlərinin dilinə, imlasına toxunmaq olmaz. Məhz buna görə də şairin əsərlərinin akademik nəşrinə böyük ehtiyac duyulur.

Bundan əlavə, vaxtilə *yüz, yürək, degil, qarşu* və s. şəklində olan sözlərin müasirləşdirilərək *üz, ürək, deyil, qarşı* kimi verilməsini də akademik nəşr üçün məqbul saymaq olmaz. Onu da qeyd edək ki, Nəsimi şeirlərinin müasir nəşrlərində bu məsələdə bir pərakəndəlik müşahidə olunur. Nümunə olaraq şairin "Seçilmiş əsərləri"ndəki (2004-cü il) iki qəzəldən verilmiş aşağıdakı beytlərə nəzər salaq:

Camalın rövzeyi-rizvan deyilmi?
Dodağın çeşmeyi-heyvan deyilmi...
Yarın cəfası cümlə vəfadır, cəfa degil,
Yarım cəfa qılur əhli-vəfa degil.

Göründüyü kimi, birinci beytdə rədif kimi işlənmiş *degilmi* sözü müasirləşdirilmiş, ikinci beytdə isə orijinalda olduğu kimi *degil* şəklində verilmişdir. Onu da qeyd edək ki, birinci beytdəki *camal* sözü kitabdakı bəzi şeirlərdə yuxarıdakı nümunədəki kimi, digərlərində isə *cəmal* şəklində verilmişdir:

Surəti-həqdir cəmalın, ey nigar,
Uş nəbinin sözləri bürhanımız.

Onu da diqqətə çatdıraq ki, birinci misradakı *həq* sözü Allah anlamında işləndiyi üçün onun böyük hərflə verilməsi, bununla da semantikasının seçdirilməsi düzgün olardı. Aşağıda bir beytini verdiyimiz "Ey üzü gül, ləbləri mərcanımız" misrası ilə başlayan bu qəzəldə *yüz* (üz) və *qarşu* (qarşı) sözləri müasir deyimdəki variantı ilə verilmişdir ki, bu məsələyə də Nəsimi əsərlərinin gələcək akademik nəşrlərində diqqət yetirilməlidir:

Üzünə qarşı sücud eylər mələk,
Səcdəyə inkar edər şeytanımız.

Onu da qeyd edək ki, akademik nəşrin mötəbər və qədim əlyazmalarda olduğu kimi, ərəb əlifbasının hərfləri əsasında hazırlanması məqsədəuyğun olardı.

Məlum olduğu kimi, klassik ədəbiyyat nümunələrində şəxs və işarə əvəzliklərinin - cılayın şəkilçisi ilə işlənməsi geniş yayılmışdır. Məsələn, Nəsiminin aşağıdakı beytində olduğu kimi:

Ey aşiq, anın zülfünə yapış bu cahanda,
Bir ancılayın dilbəri-əyyar ələ girməz.

Bu qəbildən olan *sənciləyin* əvəzliyi isə Nəsiminin İraq divanında, bəlkə də, texniki qüsur üzündən bu şəkildə getmişdir:

Aləmdə bu gün səncəliyim yar, kimin var?
Gər var desən, yox deməzəm, var, kimin var...
Eşqin qəminə eyləmişəm könlümü məskən,
Göz mancəliyin "məxzəni-əsrar" kimin var?

Yeri gəlmişkən onu da qeyd edək ki, Nəsiminin aşağıdakı məşhur misraları:

Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,
Bu, quş dilidir, bunu Süleyman bilir ancaq.
Şairin İraq divanında bu şəkildədir:
Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz,
Bu quş deyildir, bunu Süleyman dəxi bilməz.

Aydındır ki, məntiqi baxımdan yuxarıdakı beytin birinci variantını düzgün saymaq lazımdır. Nəsimi əsərlərinin əksər əlyazmalarında həmin beyt məhz bu şəkildədir.

Beləliklə, bütün bu kiçik qeydlər açıq-aşkar bir şəkildə sübut edir ki, şairin əsərlərinin yeni akademik nəşrinin, həm də geniş izahlar və şərhlər verilmiş nəşrinin yaxın gələcəkdə hazırlanması nəsimişünaslıq üçün əhəmiyyətli məsələlər sırasındadır.

Ümumiyyətlə, böyük Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsiminin ədəbi irsinin yaxın gələcəkdə geniş və hərtərəfli araşdırılmasına böyük ehtiyac duyulur. Bu istiqamətdə ilk növbədə şairin farsca divanı və ərəbcə şeirləri nəşr edilməli və dilimizə çevrilməlidir. Bundan əlavə, Nəsimi yaradıcılığında qabarıq şəkildə özünü göstərən Nizami Gəncəvi və Mövlana Cəlaləddin Rumi təsiri ətraflı şəkildə işıqlandırılmalıdır. Bu müstəvidə həmçinin Cahanşah Həqiqi və Nemətullah Kişvəri, Şah İsmayıl Xətai və Məhəmməd Füzuli yaradıcılığında Nəsimi təsirinin də geniş araşdırılması qarşıda duran vəzifələr sırasındadır.

İmadəddin Nəsimi əsərlərinin dilçilik istiqamətində araşdırılması məsələsinə gəldikdə isə, qeyd etməliyik ki, AMEA Nəsimi adına Dilçilik İnstututunda şairin anadilli əsərlərinin mükəmməl lüğətinin hazırlanması işinə artıq başlanılmışdır.Yaxın gələcəkdə İmadəddin Nəsiminin anadilli əsərlərinin müasir dilçilik elminin müxtəlif aspektlərindən geniş araşdırılması da nəzərdə tutulur.

Ümidvarıq ki, Azərbaycan humanitar elminin nümayəndələri Seyid İmadəddin Nəsiminin 650 illik yubileyinə və Nəsimi ilinə layiqli töhfələr verəcək.

**Möhsün NAĞISOYLU,**
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik***

## "Azərsu" ASC avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**
**LOT-1:** Avtoşinlərin satın alınması
**LOT-2:** Nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs - Hikmət Qasımovdan, telefon 431-47-67/2249) ala bilərlər.

**İştirak haqqı hər bir LOT üzrə 200 manatdır.**
**Təşkilat - "Azərsu" ASC**
**VÖEN - 9900001751**
**Bank - "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod - 200112**
**VÖEN - 9900003611**
**M/h - AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK - AİİBAZ2X**
**H/h - AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 aprel 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 10 aprel 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 aprel 2019-cu il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2019-cu ildə 29 çoxmənzilli yaşayış binasında 74 ədəd istismara yararsız liftlərin təmirinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

LOT 1- 29 çoxmənzilli yaşayış binasında 74 ədəd istismara yararsız liftlərin təmiri

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun yuxarıda qeyd olunan LOT-lar üzrə öz yazılı tender təkliflərini imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərfdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər LOT üçün 240 (iki yüz qırx) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər. Əlaqələndirici şəxs: Əhmədov Rəhimdil Qılınc oğlu, telefon: (018) 655-14-48.

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu: 7y İqtisadi təsnifat 142340**
**VÖEN: 2900054881**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədlər (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 28 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə 05 aprel 2019-cu il saat 17:00-a qədər Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 08 aprel 2019-cu il saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərsu" ASC reaktiv, reagent, avadanlıqlar və mal-materialların satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**
**LOT-1:** "Azərsu" ASC "Sukanal" ETLİ-nin laboratoriyası üçün tələb olunan reaktiv, reagent, avadanlıqlar və mal-materialların satın alınması
**LOT-2:** "Azərsu" ASC-nin "Mərkəzi" və digər laboratoriyaları üçün tələb olunan reaktiv, reagent, avadanlıqlar və mal-materialların satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs- Hikmət Qasımovdan, telefon 431-47-67/2249) ala bilərlər.

**İştirak haqqı hər bir LOT üzrə 200 manatdır.**
**Təşkilat - "Azərsu" ASC**
**VÖEN - 9900001751**
**Bank - "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod - 200112**
**VÖEN - 9900003611**
**M/h - AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK - AİİBAZ2X**
**H/h - AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05 aprel 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 11 aprel 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12 aprel 2019-cu il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:
**LOT 1 Access Network şəbəkə bağlantılarının 2019-cu ildə genişləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə tələb olunan paç kodların satın alınmasına dair**
**LOT 2 Access Network şəbəkə bağlantılarının 2019-cu ildə genişləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə tələb olunan modulların satın alınmasına dair.**

Tender iştirakçılarına təklif edilir ki, satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı, maliyyə durumu qənaətbəxş olmalı, satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilmiş müvafiq sahədə peşəkar və təcrübəli olmalı, texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı, vergilər və digər icbari analoji hökumət ödənişləri üzrə icra vaxtı keçmiş olmamalıdır.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 200 (iki yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
**LOT 2. 500 (beş yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **2 aprel 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
- *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **10 aprel 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **11 aprel 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs:
**Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## İstirahət günlərində səyahətə çıxanlar üçün hava proqnozu açıqlanıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti istirahət günlərində - fevralın 16-17-də səyahətə çıxanlar üçün hava proqnozunu açıqlayıb.




Departamentdən AZƏRTAC-a verilən xəbərə görə, Böyük və Kiçik Qafqaz bölgəsində fevralın 16-17-də havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Fevralın 17-də gündüz yağıntı tədricən kəsiləcək. Ayrı-ayrı yerlərdə duman müşahidə olunacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu dağətəyi rayonlarda 5-9° isti, dağlıq rayonlarda 0-3° şaxta olacaq.

Lənkəran-Astara bölgəsində arabir yağış, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Fevralın 17-də gündüz hava əsasən yağmursuz keçəcək. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 5-8°, dağlıq rayonlarda 0-3° isti olacağı bildirilir.

Aran rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Fevralın 17-də gündüz yağış tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın maksimal temperaturu 6-9° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında havanın bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Fevralın 17-si gündüz hava əsasən yağmursuz keçəcək. Mülayim qərb küləyi əsəcək. Havanın maksimal temperaturunun 7-12° isti olacağı gözlənilir.

Paytaxtda yaxın iki gün ərzində havanın arabir yağıntılı olacağı, yağıntının bəzi yerlərdə intensivləşəcəyi gözlənilir. Fevralın 17-də gündüz yağıntı tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın maksimal temperaturu 5-7° isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əziz Əzizov və Yasamal Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əziz Əzizov və Yasamal Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Qobustan Rayon Məhkəməsinin sədri Mirələm Quliyevə atası

**QOÇU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Mayıl Bayramova anası

**MİLEYLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Həyat səviyyəsinin təhlili və aktuar hesablamalar şöbəsinin müdir müavini Namiq Heydərova atası

**İBRAHİM HEYDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Qobustan Rayon Məhkəməsinin sədri Mirələm Quliyevə atası

**QOÇU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Rus ədəbiyyatı tarixi kafedrasının müdiri, Filologiya fakültəsinin sabiq dekanı, "Şöhrət" ordenli professor

**AQİL CƏFƏR XƏNDAN OĞLU HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov və məhkəmənin hakimi Rafiq Bağırov Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Mayıl Bayramova anası

**MİLEYLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8360
Sifariş 507
Qiyməti 40 qəpik